Xalqın qəzeti!

# Xalq qəzeti

№ 258 (30374) 26 noyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycan regionun nəqliyyat habına çevrilir



**Son 20 ildə Azərbaycanda həyatın bütün sahələrində aparılan uğurlu islahatlar ölkəmizi regionun ən nüfuzlu dövlətinə çevirib. Neft erasının nə vaxtsa bitəcəyini bəyan edən Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sektorunun inkişaf strategiyasını ortaya qoyub.**

Azərbaycanın yeni iqtisadi inkişaf konsepsiyasına uyğun olaraq neft-qaz resurslarının şaxələndirilmiş ixrac marşrutları ilə dünya və Avropa bazarlarına çıxarılması təmin olunub. Azərbaycan qısa müddətdə Avropanın ən etibarlı enerji müttəfiqinə çevrilib. Bununla da, ölkəmizin neft və qazın satışından əldə etdiyi gəlirləri sürətlə artmağa başlayıb. Neft-qaz gəlirlərinin artması hesabına Azərbaycan qeyri-neft sektorunun inkişaf etdirilməsi, xüsusən də nəqliyyat-logistika imkanlarının genişləndirilməsi üçün yaxşı fürsət qazanıb. Təsadüfi deyil ki, indi ölkəmiz dünyada bir sıra qlobal nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanınır.

Ötən illər ərzində Azərbaycan yerləşdiyi coğrafiyanın yaratdığı imkanlardan yararlanaraq, ölkə ərazisini Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəhəng nəqliyyat və ticarət dəhlizinə çevirən transmilli layihələri reallaşdıra bilib. Respublika iqtisadiyyatının şaxələndirilməsinə mühüm töhfə verə biləcək bu sahənin perspektivlərini ölkə Prezidenti illər öncə böyük uzaqgörənliklə müəyyənləşdirib.

*(ardı 8-ci səhifədə)*

## Azərbaycan – Macarıstan iqtisadi əlaqələri dostluğumuzu möhkəmləndirir



**Azərbaycan – Macarıstan əlaqələri qurulduğu vaxtdan etibarən yüksələn xətlə möhkəmlənib. Hazırda dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda müşahidə edilən ikitərəfli münasibətlər özünün yeni inkişaf mərhələsinə daxil olub. Belə bir uğuru isə geniş iqtisadi potensiala malik hər iki dövlət arasında imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlərin icrası şərtləndirib.**

Prezident İlham Əliyevin BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak edən Macarıstanın Baş naziri Viktor Orbanla görüşündə də bu barədə ətraflı danışılıb. Söhbətdə Azərbaycan ilə Macarıstan arasında əlaqələrin və dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, ölkələrimizin ikitərəfli əsasda və Türk Dövlətləri Təşkilatı çərçivəsində yaxından əməkdaşlıq etdiyi, həmçinin SPECA-nın işbirliyi üçün yeni format yaratdığı vurğulanıb.

*(ardı 7-ci səhifədə)*

# USAID – fitili çəkilmiş "bomba"

**ABŞ-ın ölkələrin daxili işlərinə qarışmaq üçün istifadə etdiyi metodlar müxtəlifdir. Bu baxımdan, ən geniş yayılmış metod isə ayrı-ayrı təşkilatların "xidmətlərindən" yararlanmaqdır. Söhbətimiz belə təşkilatlardan biri olan və USAID kimi tanınmış ABŞ Beynəlxalq İnkişaf Agentliyi barədədir. Yazımızda qurumun ölkəmizdəki "fəaliyyətindən" də söz açacağıq.**




Bəli, 1961-ci ildə yaradılmış və guya, bəşəri ideya və prinsiplərin, vətəndaş cəmiyyəti normalarının qorunmasını hədəf seçdiyini bəyan edən, əslində isə mütərəqqilikdən uzaq mahiyyət daşıyan agentlik Azərbaycanda 1991-ci ildən fəaliyyətdədir. Yəni, ölkəmizin dövlət müstəqilliyini əldə etdiyi vaxtdan. Elə bir vaxtdan ki, Azərbaycan cəmiyyətində hərc-mərcilik hökm sürürdü. Bəli, USAID nəinki ölkəmizə, ümumən fəaliyyət göstərdiyi bütün məmləkətlərə onlar üçün ağır sayılan zaman kəsiklərində ayaq açır.

*(ardı 3-cü səhifədə)*

# Cəza və etiraf

**Ona ünvanlanan suallar nə qədər çeşidli idisə, Nikolun cavabları da bir o qədər rəngarəng və heyrətamiz idi. Onun beş il əvvəl hakimiyyətə gəlişinin "hərbi-siyasi fəsadlarla" müşayiət olunması barədə açıqlamaları isə xüsusi maraq doğurdu.**



"Rusiyanın 44 günlük müharibə ilə Ermənistan hakimiyyətini müəyyən hərəkətlərə görə cəzalandırdığına dair tezis çox fəal şəkildə yayılır. Mən Rusiyanı bu kontekstdə müzakirə obyektinə çevirmək istəməzdim, amma gəlin bu tezisi ciddi müzakirə edək". Bu sözləri Ermənistan baş naziri Nikol Paşinyan canlı efirdə Ermənistan vətəndaşlarının və diaspora ermənilərinin suallarına cavablandırarkən deyib.

*(ardı 3-cü səhifədə)*

# 35 ilə 1 gündə qoyulan nöqtə



**Söhbət otuz ildən bəri dogma Qarabağımızda kök salmış erməni separatizmindən gedir. Özünə deyil, kənar dəstəkçilərinə güvənərək, Azərbaycanın Qarabağ iqtisadi rayonunda ömürlük məskunlaşdıqlarını düşünən "çağırılmamış qonaqların" son aqibətləri belə də olmalı idi. 44 günlük Vətən müharibəsində belləri qırılmış separatçı-daşnaklar sonuncu sığınacaq yerləri olan Xankəndini boşaltmaq barədə düşünmək belə istəmirdilər. Amma artıq dövran dəyişmiş, nə Ermənistan otuz il əvvəlki idi, nə də Azərbaycanın daha otuz il dözməyə səbri qalmışdı.**

"Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev dünən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Bakı Zirvə görüşündəki çıxışında deyib.

*(ardı 3-cü səhifədə)*

# Avropa İttifaqı nüfuzunu getdikcə daha çox itirir

**Ötən əsrin 90-cı illərinin əvvəllərində postsovet məkanında Qərb dünyasına böyük meyil yaranmışdı. Həmin meyil postsovet ölkələri ilə yanaşı, Türkiyədə də özünü qabarıq göstərirdi. Hətta, qardaş ölkədə Avropaya inteqrasiya üzrə xüsusi nazirlik yaradılmışdı. Egemen Bağış Türkiyənin Avropa İttifaqı (Aİ) üzrə naziri idi.**



Nazirlik Türkiyənin Aİ-yə üzvlük prosesi ilə bağlı məsələləri koordinasiya edirdi. Amma Aİ-nin məsələlərə ikili standartlarla yanaşması, qitədə etnik və dini zəmində ayrı-seçkiliyin güclənməsi, islamofobiya meyillərinin artması, miqrantlara münasibətdə dözümsüzlük nümayiş etdirilməsi, Türkiyənin üzvlüyü prosesində irəliləyişin olmaması, uzun illər ərzində, necə deyərlər, qapıda gözlədilməsi Ankaranın haqlı olaraq Avropaya inteqrasiyadan uzaqlaşmasına gətirib çıxardı. Nəticədə 2011-ci ildə yaradılmış nazirlik 2018-ci ildə ləğv olundu. Onun səlahiyyətləri Xarici İşlər Nazirliyinə verildi və XİN-də müvafiq şöbə yaradıldı.

*(ardı 4-cü səhifədə)*

# "Ayakve" təşəbbüsü"... Paşinyanın bundan gözləntiləri nədir?

**Cənubi Qafqaz siyasi akvatoriyasına Azərbaycanla Ermənistan arasında sülh gündəminin hakim kəsildiyi hazırkı situasiyada Ermənistan parlamentində sərsəm "Ayakve" təşəbbüsünü qaldıranlar var. Əvvəlcə, qısa şəkildə bu sərsəmliyin nədən ibarət olduğuna aydınlıq gətirəcəyik. Daha sonra isə baş nazir Nikol Paşinyan iqtidarının "təşəbbüsə" gizli dəstəyindəki bəzi məqamları vurğulayacaq və İrəvanın məkrli niyyəti üzərinə gələcəyik.**

Beləliklə, "Ayakve" Qarabağın Azərbaycan ərazisi kimi tanınmasının kriminallaşdırılması ilə bağlı hüquqi anlam daşıdığı iddia edilən təşəbbüsdür və faktiki olaraq, qonşu dövlətə, yəni, ölkəmizə qarşı ərazi iddiasıdır. Özü də bu "iddia" Ermənistan parlamentində qaldırılır. Qərbin demokratik məmləkət kimi qələmə verdiyi ölkənin ali qanunverici orqanında. Təsəvvür edin, həmin Qərbin vasitəçilik platformalarında baş nazir N.Paşinyan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir, ancaq onun təmsil etdiyi ölkənin parlamentində belə bir sərsəm məsələnin müzakirəsi aparılır. Müzakirənin vaxtı da məlumdur – bu il dekabrın 4-ü.

*(ardı 4-cü səhifədə)*

# Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Zati-aliləri cənab Jelko Komşiçə

**Hörmətli cənab Sədr,**

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2023-cü il**

# Bişkekdə “Dilimiz milli sərvətimizdir” adlı elmi-praktik konfrans

**“Heydər Əliyev İli” çərçivəsində Bişkekdə “Dilimiz milli sərvətimizdir” mövzusunda elmi-praktik konfrans təşkil olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, “İrs” İctimai Birliyinin və Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə baş tutan konfransda rəsmi, ictimai qurumların nümayəndələri, hər iki ölkənin elm xadimləri və Azərbaycan diasporunun fəalları iştirak ediblər.

Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonaliyev dünyaşöhrətli siyasətçi Heydər Əliyevin 1995-ci ildə Qırğızıstanda keçirilən “Manas” dastanının 1000 illiyi ilə bağlı tədbirlərdə iştirak etdiyini, onun “Bir-birimizə kömək edəcək, böyük Manasın qoyduğu yolla birlikdə irəliləyəcəyik” müdrik fikrinin unudulmadığını xatırladıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Milli mədəniyyətimizin, dilimizin, dinimizin, milli-mənəvi dəyərlərimizin ən böyük bilicisi və müdafiəçisi olan Heydər Əliyevin hələ sovet dövründə, ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq milli dilin təbliği üzrə ardıcıl siyasət apardığı, Azərbaycan dilinə dövlət dili statusunun verilməsi və onun qanunvericilikdə təsbit edilməsinə nail olduğu bildirilib.

Digər çıxış edənlər Qırğızıstanla Azərbaycanı bir-birinə ortaq tarixi köklərin, mədəni ənənələrin və mənəvi-əxlaqi dəyərlərin bağladığını vurğulayıb, Heydər Əliyevlə bağlı xoş xatirələrini bölüşüblər.

***XQ***

# SPECA ölkələrinin Bakı sərgisi başa çatıb

**Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı – SPECA həftəsi çərçivəsində keçirilən “Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq” adlı beynəlxalq sərgi dünən başa çatıb.**




Bu irimiqyaslı ekspozisiya SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə Azərbaycanın xüsusi təşəbbüsü ilə təşkil olunub.

Bakı Ekspo Mərkəzinin 4 min kvadratmetrlik sahəsini əhatə edən sərgidə yalnız SPECA ölkələrinin stendləri yer alıb. Həmin stendlərdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan dövlət müəssisələrinin və özəl şirkətlərin məhsullarının nümunələri nümayiş olunur. Bütün stendlər Azərbaycan tərəfindən vahid dizayn formatında quraşdırılıb.

Sərginin Azərbaycan Milli Stendinin mərkəzində “Made in Azerbaijan” markası ilə istehsal olunan məhsullar nümayiş etdirilib. Burada Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və “ABAD”çı sənətkarların hazırladıqları əl işləri təqdim olunub. Milli Stend iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf və innovasiyalar, nəqliyyat infrastrukturu və tranzit, energetika, müdafiə sənayesi, turizm, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı kimi istiqamətləri əhatə edib.

***XQ***

# Azərbaycanlı deputatlar Meksikada

**Milli Məclisin deputatları – Meksika ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əliyeva və qrupun üzvü Elşad Mirbəşiroğlu bu ölkədə işgüzar səfərdədirlər.**




Səfərin ilk günündə parlamentin nümayəndə heyəti Mexiko şəhərində yerləşən Xocalı soyqırımı abidəsini ziyarət ediblər. Onlar Meksika Konqresinin inzibati binası və “Qanunvericilik Muzeyi” ilə tanış olub, o cümlədən, Konqresin növbəti plenar iclasında iştirak ediblər. Konqresin vitse-prezidenti Azərbaycan nümayəndə heyətini səmimi şəkildə salamlayıb və Meksikada onu görməkdən məmnunluq duyduqlarını bildirib.

Deputatlar Palatasının sədri Marsela Kastiyo və Meksika–Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə ikitərəfli görüşlər keçirilib. Qrupun sədri A.Viyeqas çıxış edərək, Meksikanın dost ölkə və mühüm tərəfdaş kimi qəbul etdiyi Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri J.Əliyeva səfərə dəvətə görə təşəkkürünü bildirib, iki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası dostluq qruplarının, o cümlədən, parlament diplomatiyasının önəmli yer tutduğunu deyib.

Ölkəmizin Meksikadakı səfiri Məmməd Talıbov isə səmərəli parlament diplomatiyasının ikitərəfli münasibətlərin inkişafına əlavə təkan verdiyini vurğulayıb.

***XQ***

# “Gənc-Fest" festivalının iştirakçıları Milli Məclisdə

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və gənclərlə görüşünün 30 illiyinə həsr olunmuş "Gənc-Fest" festivalının 250-yə yaxın iştirakçısı noyabrın 25-də Milli Məclisə olub.**



Əvvəlcə parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclisin fəaliyyəti, plenar iclas zalında müasir texnologiyaların nailiyyətlərindən istifadə edilməklə yaradılmış iş şəraiti, səsvermə və qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında geniş məlumat verilib.

Bildirilib ki, parlamentin binasında müstəqil Azərbaycanın memarı olan Ümummilli liderin adını daşıyan xatirə zalı fəaliyyət göstərir. Gənclər burada Ulu öndərin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar.

Sonra qonaqlar Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsini ziyarət ediblər.

Sonda qonaqlar foyedə ulu öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidə qarşısında xatirə şəkli çəkdiriblər.

***Ə.BƏDƏLOV***
***XQ***

# Xidmətə qəbulla bağlı sıra baxışı



**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlardan 15 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# Hərbi hissədə Kəlbəcər Şəhəri Günü



**Azərbaycan Respublikasının işğaldan azad olunmuş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 iyul tarixli Sərəncamına əsasən, 25 Noyabr – Kəlbəcər Şəhəri Günüdür.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bölmələrindən birində bu münasibətlə tədbir keçirilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən siyasəti sayəsində tarixi torpaqlarımız işğaldan azad olunaraq ərazi bütövlüyümüz tam təmin edilib. Kəlbəcər Şəhəri Gününün ölkəmizin hər bir yerində, o cümlədən azad edilmiş ərazilərimizdə böyük qürur və iftixar hissi ilə qeyd olunduğu xüsusi vurğulanıb.

Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək məqsədilə belə tədbirlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirdə hərbi qulluqçular Azərbaycan Ordusunda, xüsusilə azad olunmuş ərazilərdəki bölmələrdə xidmət etməkdən qürur duyduqlarını bildiriblər.

# Türk dünyası memarlarının Şuşa simpoziumu




**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən “Türk dünyası memarlarının Şuşa simpoziumu” başa çatıb.**

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstandan 60-a yaxın memar iştirak edib. Simpoziumun təşkilində əsas məqsəd Şuşada aparılan və aparılması nəzərdə tutulan tarixi memarlıq abidələrinin bərpası və konservasiyasında, tarixi mühitin abadlaşdırılmasında Türk dünyası memarlarının təcrübəsinin öyrənilməsi olub.

***XQ***

# USAID – fitili çəkilmiş “bomba”

## yaxud ABŞ-ın “təhlükəsizlik yastığı”

(əvvəli 1-ci səhifədə)

Ayaq açır və konkret desək, pul buraxır. Söhbət qurumun müxtəlif layihələr gerçəkləşdirməsindən, vətəndaş cəmiyyəti institutlarını maliyyələşdirməsindən gedir. Əslində, bu sayaq tədbirlər “hamam suyu ilə özünə dost




tutmaq” təsiri bağışlayır. “Dostlar” demokratiya zəngulələri ilə hazırlanır və faktiki olaraq ABŞ-ın ölkələrdəki siyasi missionerlərinə, İstənilən an quruluşlardakı anti-Qərb, anti-Amerikan meyillərinə cəbhə açmağa hazır olan “müsəlləh əsgərlərə” çevrilirlər.

Bəli, dövlətlərin zəif olduğu dövrlərdə cəmiyyətlərə daxil olan USAID-in fəlsəfəsində fəaliyyət göstərdiyi ölkəni güclü və inkişaf etmiş görmək meyli yoxdur. Mütləq təlatümlər olmalıdır. Bu təşkilat klassik imperializmin “Parçala və hökm sür!” siyasətinin ehkamlaşmış təsəvvürləri ilə hərəkət etməkdədir. Onun ayırdığı maliyyə yardımları, guya ki, vətəndaş cəmiyyətinin, azad medianın inkişafına yönəlib. Əslində isə tam əks bir durum var. Sadalanan dəyərlər yalnız görüntüdür. Başları Amerika imperializminin saxtalıqları ilə dolmuş USAID-çilər təsəvvürlərinə cəmiyyətlərin gərgin vaxtlarını gətirir və işlərini həmin xüsusda qururlar. Onlar mahiyyətcə bu gündə yox, keçmişdədirlər. Onlar üçün Azərbaycan 1991-ci ildədir, heç bir inkişaf dövrü keçməyib və hesab edirlər ki, ölkəni “öz arşınları ilə nizama salmaq lazımdır”.

USAİD-in vətəndaş cəmiyyətləri üçün irəli sürdüyü inkişaf formulu saxtalıqdan, manipulyasiyalardan başqa bir şey deyil. Təsəvvür edin, illərlə Azərbaycanda azad medianın, fikir plüralizminin olmadığını iddia edənlər iki milyondan çox vətəndaşımızın sosial şəbəkə istifadəçisi olduğunu, demək olar, hər rayonunun sürətli internetlə təmin edildiyini yaddan çıxarırlar. Qəsdən inkişafı inkar edirlər ki, layihələrinin, effektivliyinə dair, özlərinin lazımlı olduqları barədə rəy formalaşdırsınlar. Sanki bunlar xilas üçün gəliblər.

USAID, əslində, ayrı-ayrı ölkələrə qoyulmuş saat mexanizmli “bomba”-dır. Bombanın fitili həmin ölkələrin inkişafa doğru getdiyi, uğurlar qazandığı vaxtlarda çəkilir. Axı, gerçək inkişaf və tərəqqi bu təşkilat üçün nonsensdir. Çünki bu amillər ölkələri ABŞ-ın, ümumilikdə, Qərbin orbitindən çıxara bilər. Zaman-zaman Azərbaycana qarşı tutulmuş əks mövqe də bundan qaynaqlanıb. Bu mövqe bu gün də “aktuallığını” qorumaqdadır. Özü də indi daha çox. Çünki ölkəmiz özünün ərazi bütövlüyünü və suverenliyini təmin edib. Yəni, ona Qarabağ müstəvisindəki xaricdən təzyiq halları artıq yoxdur. Buna görə də USAID özünün “fəaliyyətini” gücləndirib. Nəinki gücləndirib, eyni zamanda, aşkar ermənipərəst mövqe tutmağa başlayıb.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bir müddət əvvəl bildirmişdi ki, USAİD-in Amerika xalqının pullarının başqa ölkədə iğtişaşları qızışdırmaq, iğtişaşlar planlaşdıran və zorakılıq törədən qrupları hazırlamaq üçün sərf olunmasının izahı verilməlidir. Cənab Papuaşvili tam doğru təsvir vermişdi. Çünki USAID-in ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) alt strukturu kimi şəbəkələşməsi, fəaliyyət göstərdiyi ölkələrdə humanitar yardım və digər dəstək proqramları ilə yanaşı, Birləşmiş Ştatların həmin ölkələrdə mövcud ictimai-siyasi quruluşu dəyişmək üçün güc kimi istifadə edilməsi danılmazdır. Qurumun dünyanın müxtəlif yerlərində məhz bu funksiyanı yerinə yetirməsinə dair real faktlar var və bu funksiya ilk növbədə cəmiyyətlərin əsaslarının sarsıdılmasına, insanların manqurtlaşdırılmasına yönəlib.

Bəli, USAID-çilərin təsəvvürlərindəki cəmiyyət anlayışı amorf, daim manipulyasiyaya pozitiv reaksiya verə bilən, onun alətinə çevrilməyə hazır başıpozuq, düşüncə qabiliyyəti olmayan kütlədir. Nəzərə alaq ki, beləleri ilə qanuni seçilmiş hökumətləri devirmək, sıradan çıxarmaq mümkündür. Necə ki, Cənubi Amerikanın, Afrikanın müxtəlif yerlərində edilmişdi. Belə görünür, Gürcüstanda da oxşar mənfur cəhdə yol verilmiş, ancaq alınmamışdı. Nəzərə alaq ki, Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti bu il oktyabrın 2-də açıqlama yayaraq, USAID-i ölkədə hakimiyyət dəyişikliyi məqsədilə zorakı etiraz aksiyası metodları üzrə təlim keçən 3 Serbiya vətəndaşını maliyyələşdirməkdə ittiham edib.

USAID güclü dövlət strukturuna malik Azərbaycanda əsasən “yumşaq güc”dən istifadə edir. Bu siyasət gender bərabərliyi, vətəndaş cəmiyyətinə, mediaya dəstək, həmçinin vətəndaşların ictimai həyatda daha aktiv iştirakını artırmaq pərdəsi altında həyata keçilir. Onu da deyək ki, son illər bu siyasət özünü Azərbaycanda ailə dəyərləri, gender bərabərliyi, cinsi azlıqlarla bağlı vəziyyət və s. sahələrdə büruzə verir. Yəni, belə bir “dəst-xətt” ermənipərəstliklə çulğalaşmış durumdadır. Bir halda ki, güclü Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, deməli, ona qarşı çıxmaq üçün “yumşaq güc”ə üstünlük verilməlidir.

Diqqət yetirək, Qərbin erməni sevdası gücləndikcə, USAID-in də ermənipərəstliyi yeni fazaya qədəm qoyur. Müvafiq olaraq Azərbaycandakı anti-milli şəbəkəsi fəaliyyətini gücləndirir. Bu marginal şəbəkə sülhlə bağlı populist çağırışlar səsləndirir, pasifist mövqe tutaraq, Azərbaycan hakimiyyətini müharibə tərəfdarı kimi ittiham edir. Beləliklə, ictimai rəyi çaşdırmaq yolunu tutur. 44 günlük Vətən müharibəsi dönəmində də belə oldu, builki antiterror tədbirləri zamanı da.

Çox güman ki, qarşıdakı müddətdə də erməni sevgisi ilə silahlanmış USAID-çilər özlərinin daxilimizdəki emissarları vasitəsilə “fəaliyyətlərini” gücləndirəcək, hər cür oyunbazlığa yol verəcəklər. Ancaq məlumdur ki, Azərbaycan cəmiyyəti nə bu təşkilatın xaricdəki, nə daxildəki başbilənlərinin, nə də yerli emissarlarının “təbliğatına” uymayacaq qədər yetkindir. Ölkəmizdə möhkəm xalq-iqtidar vəhdəti var.

USAID yaradıldığı zaman rəhbər tutduğu ideyalara sadiq qalmayan dəst-xəttini davam etdirəcəyi təqdirdə isə ABŞ-a yalnız mənfi imic qazandıracaq. Onun fəaliyyət göstərdiyi ölkələrdə siyasi proseslərə təsir göstərmək niyyəti, qeyri-leqal maliyyələşdirmə və s. işlərinin heç bir xeyri olmayacaq. “Dəvə başını samanlığa salır, elə bilir ki, heç kəs görmür”. USAID-in nəinki arxası, arxa niyyəti də hər kəsə çox yaxşı məlumdur.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# 35 ilə 1 gündə qoyulan nöqtə

## Azərbaycan torpağının separatizm virusundan təmizlənməsinə bir sutka kifayət etdi

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı tədbir iştirakçılarının diqqətini, həmçinin torpağımızda separatizmin kökü qoparılana qədər Azərbaycanın məqsədyönlü şəkildə həyata keçirdiyi hərbi-siyasi tədbirlərə yönəldib.

* * *

Yeri gəlmişkən, cənab Prezident bu il sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində etdiyi çıxışınında antiterror tədbirlərinə qədər Ermənistan–Azərbaycan sərhədində baş verən proseslərə də toxunaraq bunları demişdi: “Aprelin 23-də (2023-cü il – red.) Ermənistanla sərhəddə sərhəd-buraxılış məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam şəkildə təmin etdik. Bununla da bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə ki, bu ilin sentyabrın 20-də biz öz suverenliyimizi tam bərpa etdik. Yəni, artıq “boz” zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulub. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir. Bu, yaxşı siqnaldır, – bəziləri hələ də qisas, revanşist ideyalarla yaşayırlar, – bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən imtina etsinlər”.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən imtina edən Ermənistanla gücdən başqa danışıq dilinin qalmadığına əmin olan Bakı beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün və suverenliyinin tam bərpası üçün BMT-nin müvafiq konvensiyalarında təsbit




olunmuş özünün müstəsna hüququndan istifadə etməyə məcbur oldu.

Zirvə görüşündəki çıxışında ərazilərimizdə separatizmə son qoyulmasının beynəlxalq hüququn və ədalətin təntənəsi olduğunu söyləyən Prezident İlham Əliyev daha sonra dedi: “Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar”.

Cənab Prezident ermənilərin hərbi təxribatlarına cavab olaraq və “boz zona”ya son qoyulması məqsədilə Azərbaycanın bu il 2023-cü il sentyabrın 19-20-də Qarabağda antiterror tədbirləri keçirdiyini və bununla da Xankəndidəki təcavüzkar separatizmə son qoyulduğunu söylədi.

“Bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələrə təşəkkürümü bildirirəm”, – deyə dövlət başçısı qeyd edib.

* * *

Tarixə qısa nəzər yetirsək, aydın olar ki, Qarabağda erməni seperatizminin tarixi hər il aprelin 24-də ermənilərin “soyqırımı” hesab etdikləri gündən başlayırdı. 1965-ci ilin aprelində hayların baş separatçıları – Silva Kapitukyan və Zori Balayan başda olmaqla Xankəndidə qondarma “soyqırımı” gününü qeyd edərkən onlar ayaqlarını yerə döyərək “qədim Artsax erməni torpağı əsirlikdədir” –bağırırdılar. Məhz həmin dövrdən etibarən təkcə Qarabağda yox, Azərbaycanın digər şəhərlərində, sənaye mərkəzlərində özlərinə isti yuva qurmuş erməni daşnaklar “Krunk”, “Artsax” və başqa gizli separatçı təşkilatlara vəsait toplayır, vərəqələr yaymaqla məşğul olurdular.

Amma məşhur el məsəlində deyildiyi kimi, su çanağı suda sınar. Hayların qonşularına quyu qazmağı hədəfləyən separatizmi öz başlarında çatladı.

**İ.HƏSƏNQALA**
**XQ**

# Cəza və etiraf

## 9 saat canlı yayımlanan mətbuat konfransında Ermənistan baş naziri gözlənilməz açıqlamalar verib

(əvvəli 1-ci səhifədə)

2018-ci ildə hakimiyyətə gəlişinin Hayastanın müttəfiqlərinin çoxu tərəfindən həzm edilmədiyinə diqqəti çəkən, həmin qüvvələrin onu “cəzalandırmaq” barədə düşündüklərini bəyan edən Paşinyan sanki “qırx qapı arxasındakı sirrin” üstünü açıb: “Bu tezisin mənası odur ki, bizim tərəfdaşlarımız üçün arzuolunmaz inqilab oldu. Çünki Ermənistanın yeni hakimiyyətinin təmsilçiləri qərbyönümlü baxışların daşıyıcılarıdır. Məhz buna görə bizim cəzamız kimi müharibə baş verdi. Belə olan halda 2016-cı ilin “dördgünlük müharibə”-sində kim və nəyə görə cəzalandırılıb?”.

* * *



Ermənistan baş naziri təzadlı açıqlamaları, gecikmiş etirafları ilə müşayiət olunan onlayn sorğu-suala qədər, cari ilin martında İrəvanda keçirilən “Erməni Demokratiya Forumu”ndakı çıxışında da müharibə mövzusuna özünəməxsus şəkildə aydınlıq gətirməyə çalışmış, 2020-ci il İkinci Qarabağ müharibəsini 2016-cı ilin “Aprel eskalasiyası”nın davamı adlandırmışdı: “Gəlin 2018-ci ilin aprelində baş nazirliyə namizəd kimi çıxış edən Serj Sarkisyanın bu mü-



haribəni elan etməsini unutmayaq. O zaman Ermənistanda hakimiyyət dəyişikliyi olmamışdı və bu, olduqca əhəmiyyətli bir vəziyyət idi. Sual oluna bilər ki, niyə demokratik rəhbərlik müharibədən yayına bilmədi? Cavab verirəm: – Ona görə ki, yeni hökumət Dağlıq Qarabağla (?) bağlı reallıqla üzləşdi. Həmin reallığı tam şəkildə “həzm etmək” mümkün deyildi”.

N.Paşinyanın səkkiz ay bundan əvvəl dediyi sözün mahiyyəti ondan ibarət idi ki, Qarabağla bağlı həqiqətləri nə yeni hakimiyyət, nə də cəmiyyət həzm edə bilməyib. Amma iki gün əvvəlki canlı efirdə ölkədəki və xaricdəki soydaşlarına ritorik suallar ünvanlayan Paşinyan Ermənistanın özündən əvvəlki rəhbərliyini suçladı: “Niyə 2013-cü il hadisələri baş verdi? Ermənistan uzun müddət danışıqlar apardı, sonra bir gecədə Gömrük İttifaqına üzv oldu? Rusiya hansı addımlara görə 2011-ci ildə Azərbaycana silah satışı ilə bağlı neçə milyard dollarlıq müqavilə imzalayıb? 2013–2014-cü illərdə baş verən hadisələrə münasibət necə oldu? Qarabağ problemi ilə bağlı deyiləsi çox şey var. 2018-ci ilin aprelində Serj Sarkisyanın bəyanatı nə idi? Bu, müharibə elanı idi?” – Paşinyan qeyd edib.

Onun sözlərinə görə, inqilab baş verib, ona görə də Ermənistanın hələ də suveren dövlət olmaq şansı var: “Əgər inqilab olmasaydı, bu şans sıfıra bərabər olardı. 2013-cü ildə baş verən hadisələr buna sübutdur. Əgər imzalaya bilmirsənsə, niyə danışıqlar aparırdın? Bundan sonra 2016-cı ilin dörd günlük müharibəsi ilə üzləşdik və danışıqlar paketini aldıq. Dağlıq Qarabağın süqutu 2018-ci ilin avqustunda baş verib”.

* * *

N.Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı dedikləri isə İrəvanın bir növ əvvəlki direniş mövqeyindən geri çəkilməsinin təzahürü kimi başa düşülməlidir. “Dünyanın kəsişməsi” layihəsinin prinsiplərini elan edəndə bildirmişdik ki, hər bir ölkə öz dövlət qurumları vasitəsilə sərhəd və gömrük nəzarətini həyata keçirməli, öz ərazisində təhlükəsizliyi təmin etməlidir. Azərbaycanın ilk reaksiyası belə oldu ki, İranla razılığa gəldikləri üçün artıq bu layihədə maraqlı görünmürlər. Biz qətiyyən əleyhinə deyilik, amma bu, bizim təklifimizdir. Üstəlik, daha bir məqam var. Prosedurların sadələşdirilməsi qarşılıqlılıq əsasında baş verə bilər. Onlar layihədə iştirak edən bütün ölkələr üçün əlçatan olmalıdır. Biz burada kifayət qədər çevikik”, – deyə Paşinyan bildirib.

İndi “çeviklikdən” dəm vuran Nikol Paşinyan dünənə qədər 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın Azərbaycanın Qərb rayonları ilə Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizinin açılmasını nəzərdə tutan 9-cu bəndin adı gələndə daş atıb başını tuturdu. Bəs indi nə baş verdi? Bəlkə Bakı ilə gerçəkləşdirə biləcəyi daha bir layihədən, deməli, qazancdan əli çıxdığına görə bu məsələdə sözünü başqa notlara “kökləyir”? Artıq gecdir, dəmir yolumuzun inşası sürətlə gedir və Hayastana oradan çox yaxında keçən qatarların arxasınca baxmaq qalacaq.

Bundan başqa, anklavlar mövzusuna toxunan baş nazir Ermənistanın 29,8 min kvadratkilometrlik ərazisindən danışanda buraya sovet dövründən Azərbaycana məxsus anklavların daxil olmadığını vurğulayıb. Paşinyan canlı yayımda anklavların danışıqlar masasında olması ilə bağlı “Tavuşdan” (Tovuz-red) olan vətəndaşın ona ünvanladığı suala cavabında belə deyib. O bildirib ki, Ermənistanla Azərbaycan arasında sülhün prinsiplərindən biri qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınmasıdır: “Anklavların danışıqlar masasında olub-olmaması ilə bağlı sual var”.

* * *

Bu da Ermənistan baş nazirinin onlayn mətbuat konfransında dilə gətirdiyi etiraflardan ən vacibi: “İndiki mərhələdə Qarabağ ermənilərinin geri qayıtması real deyil”. Paşinyan bildirib ki, Ermənistan hökuməti bu insanların Ermənistanda qalması və ölkədən mühacirət etməməsi üçün hər şeyi edəcək. Paşinyan qeyd edib ki, tezliklə bütün Qarabağ erməniləri vətəndaşlıq alacaq və ölkənin həyatına tam inteqrasiya olunacaqlar.

Bu, artıq rəsmi İrəvanın öz seçimidir. Bəli, Azərbaycana reinteqrasiyanı arzulamayan Qarabağ erməniləri indi zəhmət çəkib Ermənistana inteqrasiya olunmağın əziyyətini çəksinlər. Yəqin bu zaman Bakının onlara təminatını verdiyi güzəşt və güzəranla İrəvanın vəd etdiklərini də müqayisə etmək imkanları olacaq. Son nəticədə nədən məhrum olub, nə qazandıqlarının fərqini gördükdə sonuncu peşimançılıqlarını yaşayacaqları da indidən bəllidir.

**İmran BƏDİRXANLI**
**XQ**

# Avropa İttifaqı nüfuzunu getdikcə daha çox itirir

## *Yürütdüyü siyasətin neomüstəmləkəçilik olduğunu görən dövlətlər ondan üz döndərir*

*(əvvəli 1-ci səhifədə)*

Türkiyə ilə bağlı yazdıqlarımızı bəzi postsovet ölkələrinə də aid etmək olar. Gürcüstan az qala, 20 ildir ki, Aİ-yə üzv olmaq istəyir. Uzun illərdir ki, Aİ-nin 12 ulduzlu bayrağı Gürcüstanın dövlət bayrağı ilə yanaşı dalğalanır. Ancaq üzvlük prosesində heç bir irəliləyiş yoxdur. Eyni fikirləri Aİ-yə can atan Moldova və Ukrayna ilə bağlı da demək olar. Brüsseldə – Aİ-nin mənzil-qərargahında əyləşənlər Moldova və Ukrayna ilə bağlı da vasitəyə çevirə bildilər. 2014-cü ilin mayında Avropa Parlamentinə keçirilən seçkilər onların populyarlığının artmasının simvolu oldu. Həmin seçkilərin nəticəsi bir sıra siyasi ekspertlər tərəfindən “zəlzələ” və ya “sunami” effekti kimi qiymətləndirildi. Belə ki, 2014-cü ildə Avropa Parlamentinə keçirilən seçkilərdə Böyük Britaniyada Müstəqillik Partiyası 27,5 faiz səs toplayaraq inamlı qələbə qazandı. Fransada “Milli Cəbhə” birinci (24,8 faiz), İtaliyada “Beş ulduz hərəkatı” 21,1 faiz səslə ikinci yerdə qərarlaşsiyasətinin sərtləşdirilməsini müdafiə edirlər. Onlar, həmçinin vahid Avropa valyutasını (avro) tənqid edir və ya ondan imtinaya çağırırlar. Belə ideyaları irəli sürən partiyalara nümunə olaraq Polşanın “Qanun və ədalət”, İspaniyanın “Demokratik vətəndaş”, Macarıstan “Vətəndaş ittifaqı”, Belçikanın “Yeni flamand alyansı” və Yunanıstanın “SİRİZA” partiyalarını göstərmək olar.

Ancaq Aİ-nin öz cəlbediciliyini itirməsini göstərən ən mühüm amil Böyük Britaniyanın ittifaqın sıralarını tərk etməsi (“Brekzit”) oldu. 2016-cı il iyunun 23-də keçirilən referendumda Böyük Britaniya vətəndaşlarının 51,89 faizi ölkənin Aİ-dən çıxmasına səs verdi. Böyük Britaniyanın 1973-cü ildən davam edən Aİ üzvlüyü 2020-ci il yanvarın 31-dən fevralın 1-nə keçən gecə başa çatdı. Aİ ilə razılaşmaya əsasən, Böyük Britaniya 2020-ci ilin sonuna qədər vahid iqtisadi məkanın bir hissəsi olaraq qalmaqla, Aİ orqanlarında təmsilçilik və səsvermə hüququnu itirdi.

Avroskeptiklərin mövqeləri ənənəvi olaraq Skandinaviya ölkələrində (İsveç, Norveç, Danimarka), həmçinin Finlandiyada da güclüdür. Burada Aİ ilə mədəni inteqrasiya ideyası ümumilikdə əhali tərəfindən dəstəklənir, lakin seçicilər bəzi hüquqi səlahiyyətlərin Brüsselə ötürülməsini rədd edirlər. Onlar öz milli valyutalarının itirilməsi ideyasına skeptik yanaşırlar. Bunu xüsusilə 2015-ci ildə Danimarkada keçirilən referendum aydın şəkildə göstərdi.




qərar verməyə tələsmirlər. Nəticədə bu ölkələrin hökumətləri və xalqları Aİ-dən soyuyurlar.

Getdikcə daha çox insana aydın olur ki, Avropa xalqlarının və Qərbi Avropa sivilizasiyasının mədəni sahədə digər xalqlardan və sivilizasiyalardan üstünlüyünü açıq, yaxud üstüörtülü şəkildə bəyan edən, avromərkəzçilik adlanan fəlsəfi tendensiya və siyasi ideologiya heç də üstün dəyər deyilmiş. Avropa xalqlarının həyat tərzinin üstünlüyünü, habelə onların dünya tarixində xüsusi rolunu vurğulayan həmin siyasi ideologiyanın, əslində, neomüstəmləkəçiliyin bir elementi olduğu aşkara çıxır. Amerikalı professor Filipp Hofman yazırdı ki, 1492–1914-cü illərdə Yer kürəsinin ərazisinin 84 faizi avropalıların hakimiyyəti altında idi. Xüsusilə, XIX əsr Avropanın hökmranlığı əsri idi. İngilis tarixçi Devid Kennedayn isə qeyd edirdi ki, XIX əsrdə hökmranlıq hər hansı digər dövlətdən daha çox Britaniya imperiyasına məxsus olub.

Vaxtilə həmin müstəmləkələrdə yaşayanlar indi anlayırlar ki, Qərbin onlara yanaşması qətiyyən dəyişməyib. Aİ, bütövlükdə, Qərb XX əsrdə müstəqillik qazanmış ölkələrə neomüstəmləkəçi təfəkkürü ilə yanaşırlar. Həmin yanaşma “qoca qitə”də də kataklizmlərə yol açır. “Avrosentrizm” öz yerini sürətlə avroskeptisizmə (Aİnin gələcəyinə şübhə ilə yanaşmaq) təhvil verməkdədir. Avroskeptiklər çox vaxt milli dövlətləri, onların suverenliyini dəstəkləmək mövqeyindən çıxış edir və gələcək inteqrasiyanın onların dövlətlərinin suverenliyinə xələl gətirəcəyindən qorxurlar. Buna baxmayaraq, avroskeptisizm ayrıca, rəsmiləşdirilmiş ideologiya deyil. Müxtəlif dövlətlərin və ölkələrin, siyasi hərəkatların nümayəndələri Avropa dövlətlərinin birliyinin müəyyən aspektlərini rədd etdiklərini bildirirlər. Bir çox avroskeptiklərin məqsədləri də müxtəlifdir – Aİ-dən tamamilə çıxmaqdan, avrozonanı tərk etməkdən tutmuş, ittifaqı tərk etmədən islahatlar aparmaq istəyinə qədər. Avroskeptisizmin yeni dalğası qlobal iqtisadi böhran və miqrasiya dalğası ilə əlaqələndirilir.

Xüsusilə, XXI əsrin əvvəlləri Avropa ideyasının əleyhdarlarının güclənməsi və onun institusional həyata keçirilməsi ilə əlamətdar oldu. Avroskeptik partiyaların sayı nəzərəçarpacaq dərəcədə artdı, onların elektoral bazası (seçici sayı) genişləndi, parlamentlərdə təmsilçiliyi və siyasi proseslərə təsiri gücləndi. Aİ ölkələrinin böyük əksəriyyətində avrotənqidçilər etirazçı əhval-ruhiyyəni millətçi partiyaların populyarlaşması üçün dı. 2013-cü ildə yaranan “Almaniya üçün alternativ” partiyası səslərin 7,1 faizini toplaya bildi. Avroskeptiklər Danimarka, İsveç, Avstriya, Belçika, Niderland, Macarıstan, Polşa və Yunanıstan parlamentlərinə də daxil oldular. Ümumiyyətlə, XXI əsrin əvvəllərində avroskeptisizm Avropanın ictimai-siyasi həyatında ən çox diqqət çəkən hadisələrdən birinə çevrilib.

Avroskeptisizmin “yumşaq avroskeptisizm” adlanan daha mülayim bir qanadı da var. Həmin qanadın tərəfdarları çox vaxt vahid Avropa ideyasını inkar etmirlər. Lakin onlar Aİ üzvlərinə daha çox müstəqillik verilməsini, Şengen zonasının miqrasiya

Göründüyü kimi, Aİ nəinki Türkiyə cəmiyyətində və postsovet məkanı ölkələrində, qitənin öz dövlətləri arasında da cəlbediciliyini və nüfuzunu getdikcə daha çox itirməkdədir. Bunu geosiyasi kontekstdə Qərbin süquta doğru gedişi kimi də qiymətləndirmək olar. Bu fonda Türkiyə, Çin, Braziliya, Pakistan, Hindistan və digər yeni “oyunçular”ın yüksəlməsi isə heç də təsadüfi sayılmamalıdır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**politoloq**

Biz Azərbaycan nümunəsində görürük ki, Qərbin bəzi dairələrinə bel bağlamaq olmaz. Onlar istənilən anda öz müttəfiqlərinə xəyanət edə bilirlər. Ukrayna ilə bağlı baş verənlər göstərir ki, hər bir dövlət milli maraqlarına və suverenliyinə inanmalı, bu istiqamətdə işlər görməlidir. Ümumiyyətlə, müasir beynəlxalq proseslərdə hər bir dövlət özünə güvənməlidir. Bu, ölkənin milli təhlükəsizliyi məsələsində ən vacib aspektlərdən biridir.

Hazırda dünyada müxtəlif qüvvələr arasında mübarizə gedir. Biz həmin mübarizəni Cənubi Qafqazda, Yaxın Şərqdə, Şərqi Avropada və Cənub-Şərqi Asiya ölkələrində görməkdəyik. Söhbət müstəmləkə keçmişinə malik, indi isə inkişaf etmiş ölkələrin dünyaya ağalıq etmək uğrunda qarşıdurmasından gedir. ABŞ və Avropa İttifaqı ilə yanaşı Rusiya, Çin, Türkiyə, Braziliya, Hindistan, Cənubi Afrika Respublikası və digər bir neçə ölkə çoxqütblü dünyanın yaranması istiqamətində mübarizə aparırlar. Biz bu yaxınlarda Fransanın Afrikada necə məğlub olduğunu gördük. Fransanın yerini Türkiyə, Çin, Rusiya kimi ölkələr tutmağa başladılar. Eyni mənzərəni Yaxın Şərqdə də görürük və bu mübarizə davamlı olacaq.

Böyük ölkələrin mübarizəsində kiçik ölkələr düzgün mövqe tutmalıdırlar. Əks-təqdirdə, necə deyərlər, çanaq onların başında çatlaya bilər. Rusiya–Ukrayna müharibəsində təkcə Türkiyə tərəfləri barışdırmaq potensialına malikdir. İsraillə HƏMAS arasında da ən real barışdırıcı mövqe Ankaraya məxsusdur. Çox təəssüf ki, Qərbdəki bir sıra dairələr Türkiyənin həmin bacarığına mane olmağa çalışırlar. Onlar imkan vermirlər ki, münaqişə tərəfləri Türkiyənin başçılığı altında dialoq platforması qursunlar.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqların davam etdiyi dövrdə də biz görürük ki, müxtəlif güclər burada öz maraqlarını yürütməyə çalışırlar. Qərb ölkələri etnik separatizmlə bağlı, gələcəkdə Ermənistanın ölkəmizə qarşı ərazi iddialarını davam etdirməsinə imkan yaradan formullar irəli sürür. Qərbin Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsinin sülh müqaviləsinə daxil etmək istəyi açıq şəkildə göstərir ki, əsas məqsəd presedent yaratmaqdır. Yəni, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi adı altında onların gələcəkdə yenidən Azərbaycan torpaqlarına iddia etməsinə əsaslar formalaşdırmaq istəyirlər. Amma ölkəmiz qarşısında dayananın kim olmasından asılı olmayaraq geri çəkilmədi. Bu mənada, Azərbaycanın qazandığı zəfər təkcə Ermənistan və dünya erməniliyi üzərində deyil, regiondan kənarda yerləşərək burada hegemonluq etmək istəyən dövlətlərin qlobal maraqları üzərində qazanılmış zəfərdir.

# “Ayakve” təşəbbüsü”... Paşinyanın bundan gözləntiləri nədir?

*(əvvəli 1-ci səhifədə)*

Bəli, dekabrın 4-də Ermənistan parlamentinin dövlət və hüquq məsələləri komissiyası ölkənin Cinayət Məcəlləsinə “Artsaxın” Azərbaycanın tərkib hissəsi kimi tanınmasının kriminallaşdırılmasını və məsələnin qondarma “erməni soyqırımı” ilə bərabərləşdirilməsini nəzərdə tutan dəyişiklikləri müzakirə edəcək. Bu barədə müxalif “Ermənistan” fraksiyasının katibi Artsvik Minasyan dünən parlamentdə keçirilmiş dinləmələrdə bildirib. Həmin gün “Ermənistan” fraksiyasının hazırladığı və “Şərəfim var” fraksiyası ilə razılaşdırılmış “Ayakve” təşəbbüsü ilə bağlı erməni Milli Assambleyasının bəyanat layihəsinə baxılacaq. A.Minasyanın sözlərinə görə, əgər sözügedən komissiya təşəbbüsə müsbət yanaşmasa, ertəsi gün parlament müxalifəti məsələnin birbaşa plenar iclasın gündəliyinə salınması üçün müvafiq proseduru yerinə yetirəcək.

A.Minasyan onu da deyib ki, əgər parlament “Ayakve” təşəbbüsü ilə “Artsaxın” Azərbaycanın tərkib hissəsi kimi tanınmasının kriminallaşdırılmasına dair təklif olunan qanun layihəsinin qəbulu ilə razılaşmırsa, “Artsax xalqının” öz müqəddəratını təyinetmə hüququnu qorumaq üçün alternativ həll yolu təqdim etməlidir və ya ölkənin siyasi arenasından tamamilə uzaqlaşmalıdır. nin seçki vədlərinin yerinə yetirilməsi baş tutmayıbsa, üstəlik, ölkəyə yeni təhlükələr və çağırışlar yaranıbsa, yeganə yol getməkdir: “Bu, istefa və növbədənkənar seçkilərdə iştirak demək deyil. Ümumən, siyasi mübarizədən geri çəkilmək, ölkəni məhvə aparan rıçaqlardan tamamilə uzaqlaşmaqdır”.

***

Dediyimiz kimi, A.Minasyan məsələni, kifayət qədər dramatik tonda, habelə kateqorik şəkildə qoyur. Əlbəttə, onu da düşünmək mümkündür ki, Nikol və komandası Minasyan və onun kimilərinin nə dediklərinə, nəyi çərənlədiklərinə əhəmiyyət vermir. Bu, həqiqətən belədir. Ancaq məsələnin başqa tərəfi də var. Bu barədə söz açmazdan əvvəl bildirək ki, hazırda Qarabağ avantürasını diri tutan erməni iqtidarı özünün 2021-ci ildəki seçki vədlərinə xilaf çıxmadığını əsaslandıra bilər. Hərçənd, həmin vaxt Ermənistanda kiməsə deyilsə idi ki, Paşinyan Qarabağın Azərbaycan ərazisi olduğunu bildirəcək, çox güman, inanan tapılmazdı. Amma seçkidən heç il yarım keçməmiş bunu bəyan etdi. Yəni, məcburiyyət qarşısında qaldı. Azərbaycanın qətiyyətli və prinsipial mövqeyi həlledici oldu.

Burada ən başlıca məqama keçid alaq. Sual olunur: Heç mümkün deyilmi ki, Minasyan kimi avantüristlərin “ideyası” ümumiyyətlə, gündəmə gəlməsin? Erməni cəmiyyətini bir kənara




Əlbəttə, sərsəm erməni parlamentarisi çox yaxşı anlayır ki, Paşinyanın komandası, o cümlədən hakim “Vətəndaş sazişi” fraksiyası “təşəbbüsə” qarşı çıxacaq. Çünki Ermənistanın hazırkı iqtidarı Qarabağ avantürizminin davamını başqa cür təsəvvürə gətirir, bölgə ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini qaldırır və mövcud yöndə beynəlxalq mexanizmlər məntiqini əsas götürür. Yəni hiylə işlədərək, durumun birbaşa ərazi iddiası kimi assosiasiya olunmasına qarşı çıxır.

***

Ancaq A.Minasyanın fikrini əsaslandırmaq üçün gətirdiyi arqumentləri də bir kənara qoymaq olmaz. Məsələn, o deyir ki, 2021-ci il seçkilərində xalq tərəfindən seçilmiş hər üç parlament qüvvəsi özünün seçkiqabağı platformasında “Artsax xalqının” öz müqəddəratını təyinetmə hüququnu, “Artsaxın” təhlükəsizliyini qorumağı və bunun üçün bütün səyləri göstərməyi öhdəsinə götürüb. Hazırda Qarabağın ermənisizləşdiyini vurğulayan deputat əlavə edib ki, bu durum hakim qüvvənin – “Vətəndaş sazişi” partiyasının nəinki uğursuzluğu, eyni zamanda, seçki vədini yerinə yetirməməsinin göstəricisidir.

Əlbəttə, məsələyə mövcud kontekstdən yanaşsaq, A.Minasyanı haqlı saymaq mümkündür. Axı, həqiqətən də, N.Paşinyanın seçki vədləri uzaq keçmişin söhbəti deyil. Onların üzərindən cəmi iki il yarım keçib. Hələ Nikolun “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını yada salıb durumu bir qədər də dramatikləşdirmək mümkündür.

Vəziyyəti daha dramatik şəkildə qoyan isə elə Minasyanın özüdür. İlkin parlament dinləmələri zamanı “Ayakve” təşəbbüsünə, yəni “Artsax xalqının” öz müqəddəratını təyinetmə hüququnun inkarına görə cinayət məsuliyyətinə cəlb edilmənin mümkünlüyünə dair qanun layihəsinə baxılması ilə öyünən müxalifətçi deputat qeyd edib ki, Ermənistanın Cinayət Məcəlləsinə düzəlişlər “böyük məqsədə” çatmanın mexanizmlərindən biridir. Onun sözlərinə görə, hakim qüvvə düzəlişlərin əleyhinə səs verəcəyi təqdirdə, seçicilərinin iradəsinə qarşı çıxmış olacaq. “Əgər parlamentə seçilən qüvvələr bu qanunvericilik təşəbbüsü ilə bağlı səsvermədə mənfi rəy bildirsələr, o zaman legitimliklərini itirirlər. Onlar bu addımları ilə erməni xalqına qarşı cinayət törədirlər və xalqı təmsil etməklə bağlı konstitusiya hüququndan məhrum olurlar”, – deyən Minasyan vurğulayıb ki, hakim qüvvəqoyaq, axı, ilk baxışdan düşünülə bilər ki, lideri Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkənin parlamentində “demokratik qıcqırma” baş verməməlidir. Ən azı məsələnin ölkə üçün ziyanlı olduğu başa düşülməlidir. Bir halda ki, Ermənistan dövləti Cənubi Qafqazda sülhdən danışır, ölkəyə gəlib-gedən xaricilərin qarşısında əmin-amanlıq və dinclik şəraitində, mehriban qonşuluq əsasında birgə yaşamaq zəngulələri vurur, Minasyan kimi siyasi həşəratların “qanun layihəsi” adı ilə ortaya atdıqları cəfəngiyyat ali qanunverici orqanın nəinki qapı və pəncərəsindən, hətta kiçik bacasından da içəri yol tapmamalıdır. Ancaq yol tapır və heç şübhəsiz, prosesdə Paşinyan iqtidarı da gizli rol oynayır. Bəs, nədir bu rol?

***

Bəli, əvvəldə haqqında danışacağımızı söylədiyimiz məqam budur. Baş nazir N.Paşinyan Minasyan kimilərini beynəlxalq ictimaiyyətə göstərib Qarabağ avantürası müstəvisindəki öz “baxışları” üçün immunitet qazandırır. Təxminən belə: mənim ölkəmin cəmiyyəti və siyasi qüvvələri Qarabağla bağlı maksimumu hədəfləyir, ancaq mən minimum nəticə ilə kifayətlənirəm. Yəni, Nikol demokratiyanı, azad sözü alətə çevirir.

Minasyan və onun kimilər də fərqinə varmadan Paşinyan iqtidarının aləti qismində çıxış edirlər. Məhz buna görə Ermənistanın hakim komandası dekabrın 4-də ölkə parlamentində “Ayakve” adlı “teatr” sərgiləyəcək, dramatizmə, pafosa və saxta sentimentallığa güc verəcək. Nikol elə düşünür ki, belə etməklə, xaricilər onun hazırda Qarabağ mövzusundakı istəklərini yerinə yetirmək naminə daha böyük səy göstərəcəklər. İstəkdən isə söz açdıq. Söhbət Qarabağ ermənilərinin bölgəyə qayıtmaları üçün hüquq və təhlükəsizliklə bağlı beynəlxalq təminatların formalaşdırılmasından gedir. Nəzərə alaq ki, bu təminatlar Azərbaycanın Qarabağ üzərindəki suveren haqlarını heçə saymağa, perspektivdə isə bölgənin Ermənistana məxsusluğunu iddia etməyə əsas vermək qismində gündəmə gətirilməkdədir. Yəni, faktiki olaraq, indiki durumda Minasyanla Paşinyan arasında elə bir ciddi fərq yoxdur. Onların yalnız məsələlərə, hadisə və proseslərə yanaşmaları müxtəlifdir. Birinci “Ayakve” deyib, çığır-bağır salır, ikinci öz aləmində daha rasional və praqmatik davrandığını düşünür. Elə müəmma da bundadır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ulu öndər Zəfər zirvəsindən daha əzəmətli görünür



**Prezident İlham Əliyevin ölkəmizdə "Heydər Əliyev İli" elan etdiyi 2023-cü il müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun xalqımız qarşında misilsiz xidmətlərinin Zəfər və qələbələr zirvəsindən qiymətləndirilməsi ilə əlamətdardır. Necə deyərlər, Ulu öndər 3 il əvvəl yüksəldiyimiz Zəfər zirvəsindən daha əzəmətli görünür.**

Heydər Əliyev ili ilə bağlı ölkəmizdə və xaricdə keçirilən müxtəlif səpkili tədbirlər bir daha göstərir ki, bu gün ölkəmizin dünyanın söz sahiblərindən biri kimi tanınmasının əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Bir daha yəqin edirik ki, məhz ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə yenicə müstəqillik qazanmış ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən xilas olub, bütün sahələrdə köklü islahatlara, dövlət quruculuğu prosesinə başlanılıb. Ümummilli lider Heydər Əliyev genişmiqyaslı dövlət quruculuğunun sosial-iqtisadi sahəsində də köklü dəyişikliklərin əsaslarını yaratdı.

Nizami milli ordunun yenidən təşkili və möhkəmləndirilməsi isə Ulu öndərin işğal edilmiş torpaqlarımızın möhtəşəm zəfərlə azad edilməsi, Azərbaycanın ərazi bütövlyünün təmin edilməsi işinə misilsiz töhfəsi sayılmalıdır. Ümumiyyətlə, Ulu öndər Azərbaycanda hərbi vətənpərvərlik və zabit kadrları hazırlığına hələ Azərbaycana birinci rəhbərliyi dövründə ciddi önəm vermişdi. Uzaqgörən rəhbər yaxşı bilirdi k, gələcək milli ordunu qurmaq üçün zabit kadrları ehtiyatı yaradılmalıdır.

O vaxtlar azərbaycanlılar arasında peşəkar hərbçilərin yetişdirilməsinə imkan verməmək üçün sovet rejimi Azərbaycandan orduya çağırılan gəncləri döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmətə yönəldirdi. Bu siyasətin mahiyyətini yaxşı dərk edən Heydər Əliyevin qətiyyəti sayəsində 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb yaradıldı. Ulu öndərin səyi nəticəsində mənim kimi yüzlərlə gənc keçmiş SSRİ dönəmində ali hərbi məktəblərdə təhsil aldı. Ulu öndər azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində və Vətən müharibəsində yüksək peşəkarlıq və misilsiz igidliklər nümayiş etdirdilər.

Ulu öndərin hakimiyyətə qayıdışı separatçı meyllərin tüğyan etdiyi bir dövrə düşmüşdü. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə ictimai-siyasi və hərbi vəziyyət son dərəcə mürəkkəb idi. Bir tərəfdən erməni işğalı, digər tərəfdən ölkə daxilindəki separatçı qüvvələr vəziyyəti gərginləşdirir, müstəqilliyimiz, ərazi bütövlüyümüz, suverenliyimiz üçün ciddi təhdidlər yaradırdı. Belə bir zamanda – 1993-cü ildə Azərbaycanın cənub bölgəsində bir qrup separatçı fəallaşaraq ətraflarına silahlı dəstələr yığıb, özbaşınalıqla məşğul olurdu.

Həmin vaxt mən Lənkəranda sərhəd dəstəsinin qərargah rəisi idim və faktiki olaraq sərhəd dəstəsinin rəisi vəzifəsini icra edirdim. O vaxt sərhəd dəstəsi cənubdakı separatçı qüvvələrə qarşı yeganə əsas müqavimət mərkəzi idi. Mən respublika rəhbərini mütəmadi bölgədəki vəziyyətlə bağlı məlumatlandırır, öz fəaliyyətimi onun tövsiyələri və göstərişləri əsasında qururdum.

Bir dəfə Ulu öndər zəng edərək əslən Lənkərandan olan, vaxtı ilə bu şəhərdə yüksək vəzifələr tutan, xalq arasında böyük nüfuzu olan bəzi adamlardan söhbət açdı və məndən "Bu adamları tapıb mənimlə əlaqələndirmək üçün sənə nə qədər vaxt lazımdır?" – deyə soruşduqda dedim ki, cəmi bir saat içində həmin adamları tapa bilərəm. Bir saatdan sonra Heydər Əliyev həmin şəxslərlə telefon əlaqəsi yaradaraq təlimatlar verdi, onlara əhali arasında təbliğat işini genişləndirməyi, insanları separatizmə qarşı mübarizəyə səfərbər etməyi tapşırdı. Həmin vaxt separatçılara qarşı mübarizədə böyük fəallıq göstərən Dilrubə Camalovanın təhlükəsizliyinin təmin edilməsi, onun qorunması da diqqət mərkəzində saxlanılırdı.

Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycan xalqı heç vaxt separatizmə dəstək verməyib, əksinə, bu cür hallara qarşı çıxıb. Sadəcə, həmin vaxt baş verən hadisələrin mahiyyətini anlamayan bəzi gənclər müxtəlif vədlərə inanaraq separatçı fəalların ətrafında cəmləşmişdilər ki, onların böyük əksəriyyəti sonradan əsl həqiqəti anladılar və Heydər Əliyevə inanaraq separatçı əməllərdən əl çəkdilər. Ümumiyyətlə, xalq Heydər Əliyevə bütün qəlbi ilə inanırdı və Ulu öndər hər zaman xalqın bu inamına güvənirdi.

Xilaskar lider bölgədəki vəziyyəti daim diqqət mərkəzində saxlayır, tövsiyə və göstərişlər verməklə yanaşı, təkliflərlə də maraqlanırdı. Bir dəfə o, ölkəmizin cənubunda yaranan gərgin vəziyyət haqqındakı söhbət əsnasında mənim mövcud situasiya ilə bağlı nə düşündüyümü soruşdu. Bildirdim ki, separatçıların ətrafında birləşən gənclərlə, xüsusilə də onların valideynləri, doğmaları ilə təbliğat işini genişləndirməliyik. Əgər biz bu işi yüksək səviyyədə qura bilsək, o zaman gənclər səhv yolda olduqlarını anlayaraq geri dönərlər.

Bu təklif Heydər Əliyevin çox xoşuna gəldi. Məhz onun göstərişi ilə biz, habelə Bakıdan Lənkərana ezam edilən nümayəndə heyəti həmin gənclərin doğmaları ilə geniş maarifləndirmə işi apardıq. Nəticədə, bir neçə gündən sonra separatçı xainlərə qoşulmuş gənclərin böyük hissəsi silahı yerə qoyaraq doğmalarının yanına qayıtdı. Separatçılar qısa zamanda neytrallaşdırıldılar. Onların nəzarətindəki silah-sursat, hərbi texnika müvafiq dövlət orqanlarına qaytarıldı. Ulu öndərin böyük qətiyyəti sayəsində ölkəmizdə qardaş qırğınının qarşısı alındı.

Sovet zamanı bu dövlətin ali rəhbərliyinə yüksəlmiş ümummilli lider Heydər Əliyevin nüfuzundan, onun siyasi çəkisindən minlərlə azərbaycanlı uğurla bəhrələnib. Kənarda yaşayan soydaşlarımız hər zaman ulu öndərlə fəxr ediblər. Mən keçmiş SSRİ-nin bir çox bölgələrində, o cümlədən, Uzaq Şərqdə xidmət etmişəm. Orada insanlarla söhbət zamanı görürdüm ki, onlar Azərbaycan haqqında çox az şey bilirlər. Hətta bir çoxları Azərbaycanı ümumiyyətlə tanımır. Lakin maraqlıdır ki, Azərbaycanı tanımayan bu şəxslər belə Heydər Əliyevi tanıyır, onun böyük dövlət xadimi olduğunu bildirirdilər. Bu isə biz azərbaycanlılarda qürur hissi oyadırdı.

Xalqımızın böyük oğlu Heydər Əliyev sovet dönəmində harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, daim azərbaycanlıların qayğısına qalır, onları himayə edir, mühüm postlar tutmasına çalışırdı. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, onun təhlükəsizliyinin gücləndirilməsi, müdafiə qabiliyyətinin yüksəlməsi istiqamətində tarixi addımlar atdı. Ulu öndər Heydər Əliyevə həsr etdiyim və 1998-ci ildə nəşr edilən "Milli sərvət" kitabımda Ümummilli liderimizin bu sahədəki fəaliyyətinə toxunaraq bu fəaliyyətin dövlətimiz və xalqımızın rifahı və təhlükəsizliyi baxımından nə qədər önəmli olduğunu konkret faktlar əsasında diqqətə çatdırmağa çalışmışam. Bununla yanaşı, hesab edirəm ki, son dərəcə zəngin olan Heydər Əliyev irsi daim tədqiq edilməli və öyrənilməlidir.

Azərbaycanda Sərhəd Qoşunlarının formalaşmasında da Heydər Əliyevin böyük rolu olub. Naxçıvana rəhbərlik etdiyi dövrdə ulu öndər Heydər Əliyev sovet sərhəd qoşunlarının yerli dəstəsini bütün əmlakı ilə birlikdə ölkəmizin tabeliyinə keçirməklə müstəqil dövlətimizdə sərhəd xidmətinin əsasını qoymuşdu. Azərbaycanda hakimiyyətə qayıdandan sonra da Ulu öndər sərhədlərimizdəki real vəziyyətlə davamlı maraqlanır, öz tapşırıqlarını verirdi. Yeni sərhəd məntəqələrinin yaradılması, sərhədçilərin təminatının yaxşılaşdırılması, sərhədlərin daha etibarlı qorunması kimi amillər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı məsələlər idi. O, bəzən sərhəd zastavalarını bir-bir gəzərək mövcud vəziyyətlə yerindəcə tanış olur, öz tövsiyə və göstərişlərini verirdi.

Həmin vaxt sərhədlərin qorunmasının təşkili olduqca çətin idi. Çünki SSRİ-nin dağılması ilə yeni sərhədlər meydana çıxmış, habelə, sərhədçilərin istifadə etdiyi bir çox qurğu və avadanlıqlar bölgəni tərk edən sovet əsgərləri tərəfindən dağıdılmış, məqsədli şəkildə yararsız hala salınmışdı. Belə olan halda sərhədçilərimiz həm yeni sərhədlərin mühafizəsini təşkil etməli, həm də məhv edilən xüsusi avadanlıqları əldə etməli idi. Bu isə böyük zəhmət və ikiqat fədakarlıq tələb edirdi.

Sərhədlərimizdəki vəziyyətdən xəbərdar olan Heydər Əliyev bu problemləri həll etmək üçün bütün mümkün vasitələrdən istifadə edirdi. O, sərhədlərin mühafizəsinə peşəkar hərbçiləri, bu sahədə təcrübəsi olan kadrları cəlb edir, onların təcrübəsindən faydalanmağa çalışırdı.

Çox keçmədi ki, Heydər Əliyevin sərhədlərin möhkəmlənməsi ilə bağlı sərgilədiyi ardıcıl səylər müsbət nəticəsini verməyə başladı. Azərbaycan yenicə müstəqillik əldə etməsinə baxmayaraq, öz sərhədlərinin etibarlı şəkildə mühafizəsində bütün MDB məkanına nümunə sayılacaq dövlətə çevrildi. Ümumiyyətlə, təkcə Sərhəd Qoşunlarının deyil, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin bütün komponentlərinin formalaşması, onların əsl nizami birliklər, qoşun növləri kimi inkişaf etməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Mən fəxr edirəm ki, tale mənə Ulu öndərlə ünsiyyətdə olmaq, onun tövsiyələrindən faydalanmaq, Ümummilli liderin tapşırıq və göstərişlərini icra etmək səadəti bəxş edib. Nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev də xalqımızla birlikdə əbədi yaşayacaq, hər zaman sevgi ilə anılacaq.

***Cəlil XƏLİLOV,***
***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik***

# Azərbaycan kinosunun Heydər Əliyev epoxası

**Həyatımızın bütün sahələrində olduğu kimi, Azərbaycan kinosunun inkişafında da ümummilli lider Heydər Əliyevin xüsusi xidmətləri olub. Kinoşünas Aydın Kazımzadənin "Heydər Əliyev və kinematoqraf" kitabında və digər mənbələrdə bu barədə ətraflı bəhs olunur.**

Hələ ötən əsrin 50-ci illərində Heydər Əliyev İkinci Dünya müharibəsində əsir düşmüş əfsanəvi partizan Mehdi Hüseynzadəylə bağlı qadağaların aradan götürülməsinə nail olub. Məhz onun səyi nəticəsində "Mixaylo" ilə bağlı məxfi materiallar araşdırıldıqdan sonra Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib, ardınca isə gənc yazıçılar Həsən Seyidbəyli və İmran Qasımov "Uzaq sahillərdə" adlı son dərəcə maraqlı bir roman yazıblar. Həmin əsərin motivləri əsasında rejissor Tofiq Tağızadənin çəkdiyi eyni adlı bədii film isə böyük populyarlıq qazanaraq, dünyanın 100-dən çox ölkəsində nümayiş etdirilib.

Onu da qeyd etmək yerinə düşər ki, 1960-cı illərdə kinomuzda Heydər Əliyevin özünün prototipi görünüb. Söhbət Cəmşid Əmirovun ssenari müəllifi, Əlisəttar Atakişiyevin rejissoru olduğu "İstintaq davam edir" (1966) tammetrajlı bədii filmindəki Çingizov obrazından gedir. Xalq artisti Kamal Xudaverdiyevin canlandırdığı bu obrazın timsalında Azərbaycan çekistlərinin və milisinin fəaliyyətinin, sıravi vətəndaşların sayıqlığının nəticəsində xarici kəşfiyyatın təxribatının üstü məharətlə açılır.

"İstintaq davam edir" filmi istehsal olunan zaman Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini idi. 1967-ci ildə isə xalqımızın böyük oğlu Azərbaycan DTK-nın sədri vəzifəsinə gəlib. Rejissor Əlisəttar Atakişiyev onda həmkarlarına demişdi: "Gördünüzmü, mən Çingizov obrazında Əliyevi necə görürdümsə, həyatda da bu, belə oldu. Əvvəl kinoda prototipi yaradıldı, sonra da müttəfiq respublikalar içərisində ilk olaraq Azərbaycanda Dövlət Təhlükəsizlik Komitəsinə rəhbər milli kadr – Heydər Əliyev təyin edildi. Mən belə olacağına inanırdım" .

Ulu öndər hərtərəfli yetkin şəxsiyyət olduğu üçün sənət adamlarının yaradıcılıq azadlığına ciddi önəm verirdi. Buna görə də "yuxarı"ların kinoya ideoloji basqılarını neytrallaşdırırdı. O dövrdə hələ gənc olan Rüstəm İbrahimbəyov və Eldar Quliyevin "Bir cənub şəhərində" filmi sovet qadağaları ilə üzbəüz qalanda yaradıcı heyət Heydər Əliyevdən yardım istəmişdi. Həmin film zərərli ekran işi kimi qiymətləndirilsə də, DTK sədri Heydər Əliyev kinolentə baxaraq müəllifləri dəstəkləmiş və əsərin ekranlara buraxılmasına kömək etmişdir.

1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyasının 1-ci katibi postuna gələn Heydər Əliyev respublika həyatının bütün sahələrinə yeni ab-hava gətirib. Həmin ilin avqustunda keçirilən növbəti plenum isə respublikada baş verən neqativ halların aradan qaldırılmasında mühüm rol oynayıb. 1979-cu ildə Rasim Ocaqovun çəkdiyi "İstintaq" filmi də məhz Heydər Əliyevin neqativ hallara qarşı mübarizəsindən sonra ortaya çıxan ekran əsəri olub. Filmdə sovet cəmiyyətindəki mənfi hallar açıq şəkildə göstərilib və qanunsuz yolla varlananların fəaliyyəti ifşa edilib. Respublika rəhbəri o zaman dəbdəbəli toy mərasimlərinin keçirilməsinin əleyhinə idi. Bu məqam "İstintaq"da öz əksini tapıb. Reallığı əks etdirən bu kinolent keçmiş SSRİ-yə səs salıb. Filmin yaradıcı heyətinə – ssenari müəllifi Rüstəm İbrahimbəyova, quruluşçu rejissor Rasim Ocaqova, quruluşçu operator Rafiq Qəmbərova, quruluşçu rəssam Fikrət Bağırova, aktyorlar Aleksandr Kalyagin, Həsən Məmmədov və Şəfiqə Məmmədovaya SSRİ Dövlət Mükafatı verilib.

İnamla deyə bilərik ki, Ulu öndərin hakimiyyətdə olduğu ilk dönəm



– 1970–1980-ci illər Azərbaycan mədəniyyətində sovet intibahı dövrü kimi xarakterizə olunur. Bu dönəmdə bir-birinin ardınca "Nəsimi", "Dədə Qorqud", "Babək", "Nizami" filmləri çəkilib. Azərbaycanın tarixi-mədəni irsini əks etdirən bu filmlər xalqımızı dünyada tanıdıb. Eyni zamanda, görkəmli dövlət xadimi və böyük yazıçı-publisist Nəriman Nərimanovun adının üzərindən qadağaların götürülməsi də birmənalı olaraq Heydər Əliyevin xidməti olub.

Tarixi-bioqrafik tərzdə çəkilən və Nəriman Nərimanova həsr edilən "Ulduzlar sönmür" (1971) filminə münasibət bildirən Heydər Əliyev bir amili xüsusi vurğulamışdı: "Siz yəqin filmdə Hacı Zeynalabdin Tağıyev obrazını gördünüz. Diqqətlə baxanda bu filmdə iki obraz görünür – Nəriman Nərimanov və H.Z.Tağıyev. Bu düzgündür, yoxsa yox?". Ulu öndər Heydər Əliyev sətiraltı mənası olan həmin sualı verməklə filmin yaradıcı heyətinin cəsarətinə işarə etmiş və bu gerçəyi dəstəkləmişdi. Filmdə Tağıyev xalqı Azərbaycanın gələcəyi barədə düşünməyə çağırmışdı. Çox güman ki, ulu öndər Heydər Əliyev qeyrətli xeyriyyəçinin adını çəkməklə bu məqamı nəzərdə tutub.

Onu da xatırladaq ki, Ulu öndərin təşəbbüsü ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsi ilə əlaqədar 1973-cü ildə İsa Hüseynovun ssenari müəllifi, Həsən Seyidbəylinin rejissoru olduğu "Nəsimi" filmi ekranlara çıxıb və Azərbaycan kinosunu daha da məşhurlaşdırıb. Film hətta xarici valyuta ilə alınan kinolentə çəkilib ki, bu da çəkilişin daha keyfiyyətli olması məqsədilə edilib. "Nəsimi" filmində təkcə şairin həyatından deyil, ölkəmizin tarixi taleyindən də bəhs olunur. Burada Birinci İbrahim Şirvanşahın (Xalq artisti Səməndər Rzayev) torpaqlarımızı kənar hücumlardan qorumaq diplomatiyasından da bəhs edilir. Bu da milli dövlətçilik düşüncəsinin xalqımızda kino vasitəsilə oyadılması demək idi.

Ulu öndərin "Babək" filmi üçün 500 min rubl məbləğində əlavə vəsait ayrılması barədə göstəriş verməsi sayəsində rejissor Eldar Quliyevin 1979-cu ildə həmin ekran işini ərsəyə gətirməsi də xüsusi qeyd olunmalıdır. Kino xadimləri onu da minnətdarlıqla xatırlayırlar ki, həmin filmin Naxçıvandakı çəkilişləri zamanı Heydər Əliyev yaradıcı heyətdən hərtərəfli köməyini əsirgəməyib, hətta rayon rəhbərliyinə plantasiyalarda üzüm yığan insanların kütləvi səhnələrə cəlb olunmasını tapşırıb.

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi 2-ci dönəmdə də milli kinodan qayğısını əsirgəməyib. Gərgin siyasi proseslərin getdiyi, Qarabağın və Şərqi Zəngəzurun işğala məruz qaldığı bir vaxtda Ulu öndərin mədəniyyətə, o cümlədən, kinoya diqqəti zərrəcə azalmayıb. İlk növbədə, o zaman, demək olar ki, dağılmış kino sənayesinin dirçəldilməsi xüsusi qeyd olunmalıdır. Heydər Əliyev 1993-cü ilin dekabrında Dövlət Film Fondunun yaradılmasına dəstək verib. Bu da nəticə etibarı ilə Azərbaycanın kino tarxinin və filmlərin qorunub saxlanması demək idi. O zamandan bəri bu fond bir çox ölkələrdən Azərbaycana aid kino materiallarını ölkəmizə gətirərək mühafizəsini təşkil edib. Ən əhəmiyyətli hadisə isə Heydər Əliyevin Azərbaycan gerçək kino tarixini rəsmən təsdiqləməsidir. Bibiheybətdə və Balaxanıda neft fontanı yanğınları xronikalarının tapılması ilə kinomuzun tarixi daha 18 il əvvələ – 1898-ci ilə gedib çıxıb. Bu faktın aşkar edilməsi nəticəsində Ulu öndərin 2000-ci il dekabrın 15-də imzaladığı sərəncamla 2 avqust Azərbaycan Kinosu Günü elan edilib.

Heydər Əliyev Azərbaycan kinosunu inkişaf etdirmək, onun təbliğinə geniş meydan açmaq, ölkəni kino dövləti kimi tanıtmaq məqsədilə 1998-ci ilin 3 iyul tarixində "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununu imzalayıb. Bununla da Ulu öndər milli kinomuz qarşısında konkret vəzifələr, kinematoqrafiyamız qarşısında çoxillik proqram qoyub.

Ümummilli liderin bu siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyev, bütövlükdə mədəniyyətin inkişafı naminə önəmli addımlar atır, mükəmməl proqramlar həyata keçirir. Bu da Ulu öndərin mədəniyyət siyasətinin təntənəsi deməkdir.

***Ceyhun MİRZƏLİ,***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Şəkidə Rasim Ocaqovun yubileyi





**Milli kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, SSRİ və Azərbaycan dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun anadan olmasının 90 illik yubileyi noyabrın 25-də onun doğulub boya-başa çatdığı Şəki şəhərində qeyd edilib.**

Tədbir iştirakçıları əvvəlcə Rasim Ocaqov adına Şəki Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə tanış olub, uşaqların əl işlərindən ibarət sərgiyə baxıb, bədii proqramı izləyiblər. Sonra şəhərdə qoyulmuş barelyefi önünə gül dəstələri düzüb, sənətkarın xatirəsini ehtiramla yad ediblər.



Tədbir Şəki Dövlət Dram Teatrında davam edib. İştirakçılar əvvəlcə teatrın foyesində kinorejissorun həyat və yaradıcılığından bəhs edən fotosərgiyə baxıblar.

Yubiley tədbiri teatrın böyük zalında davam etdirilib. Tədbirdə Rasim Ocaqovun həyat və yaradıcılığı barədə sənədli film nümayiş etdirilib, kinorejissorun fəaliyyətinə dair bədii proqram təqdim olunub.

Bildirilib ki, Rasim Ocaqovun yaradıcılıq yolu milli kino mədəniyyəti tarixində xüsusi bir mərhələni təşkil edir. Böyük sənətkar çəkdiyi maraqlı kinofilmlərdə novator metodlardan bacarıqla istifadə edib. Kino sənətinin zəngin imkanlarının üzə çıxarılmasında Rasim Ocaqovun böyük əməyi olub. Onun filmləri fəal vətəndaş mövqeyi və müasirliyi ilə seçilir. Böyük sənət əsərləri olan bu filmlər Azərbaycan kinosunun qızıl fonduna daxil olub.

Qeyd olunub ki, Rasim Ocaqov Vətəninə, doğulduğu torpağa, Şəkiyə bağlı bir insan idi. Onun ekran əsərlərinin bir neçəsi – “Ad günü”, “Həm ziyarət, həm ticarət” və digər filmlər Şəki, onun həyatı ilə bağlıdır. Bu ekran əsərlərinin qəhrəmanları sadə şəkililərdir.

Tədbirdə Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova, Rasim Ocaqovun bir çox filmlərində rol almış Xalq artistləri Hacı İsmayılov, Fəxrəddin Manafov, rejissorla uzun illər çiyin-çiyinə çalışmış kino xadimləri, operatorlar çıxış edərək, görkəmli kinorejissorla bağlı xatirələrini bölüşüblər.

Rasim Ocaqovun ailə üzvləri adından nəvəsi Nərminə Həsənova çıxış edərək yubiley gecəsinin yüksək səviyyədə təşkilinə görə təşkilatçılara minnətdarlığını bildirib.

Sonda şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov vurğulanıb ki, Rasim Ocaqov Şəki şəhərini çox sevirdi. Onun xatirəsi burada da daim əziz tutulur. Diqqətə çatdırılıb ki, Şəkidə Rasim Ocaqovun yaşadığı evə xatirə lövhəsi vurulub, “Güyümlər” dairəsində barelyefi qoyulub. Şəki şəhərində Rasim Ocaqovun adını daşıyan küçə var.

***XQ***

# Tələbə musiqiçilərin Arif Məlikovun xatirəsinə ehtiramı



**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dünyaşöhrətli bəstəkar Arif Məlikovun 90 illik yubileyinə həsr olunmuş konsert və sərgi keçirilib.**

Tədbirdə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Aytən İbrahimova görkəmli bəstəkarın çoxşaxəli yaradıcılığından bəhs edib, onunla bağlı xoş xatirələrini bölüşüb.

Təntənəli konsert gecəsində BMA-nın “İxtisas fortepiano” kafedrasının baş müəllimi Zərif Kərimova (piano) və istedadlı musiqiçilər Nərgiz Əliyeva (fleyta), Ülviyyə Kazımova (piano), Renata Abubəkirovanın (violin) parlaq ifalarının fonunda qiraətçi Hüseynağa Aslanov tərəfindən Nazim Hikmətin şeirləri oxunub.

Konsert proqramında Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletindən violin üçün monoloq, “Rəqs”, “Noktürn”, “İki qəlbin dastanı” baletindən “Komdenin arzuları”, fleyta və orkestr üçün “Konsertino”, fortepiano pyesləri – “Üç vals”, “Zarafat”, “Noktürn”, “Təzadlar”, “İki qəlbin dastanı” baletindən “Qızların rəqsi” əsərləri dinləyicilərə təqdim olunub.

Sərgidə isə rəssamlar – Könül Hüseynzadə, Şəfiqə Yusupova, Turan Ataşova, Kristina Sultanovanın rəngarəng rəsm əsərləri nümayiş etdirilib. Təqdim olunan rəsm əsərlərinin bir qismi Arif Məlikovun yaradıcılığına, bəstələdiyi əsərlərə həsr olunub.

Rəssam Şəfiqə Yusupova sərgidə, həmçinin görkəmli bəstəkarın portreti olan “Ümidli baxışlar” adlı əsərini təqdim edib.

Xatırladaq ki, dünyaşöhrətli bəstəkar Arif Məlikov 2019-cu il may ayının 9-da ömrünün 86-cı ilində vəfat edib.

***XQ***

# TDT İslam rəhbərləri Daşkənddə

**Noyabrın 25-də Daşkənddə Türk Dövlətləri Təşkilatının İslam dini idarə rəhbərlərinin 4-cü görüşü keçirilib.**




Məruzəçilər Türk-İslam həmrəyliyinin möhkəmləndirilməsində, dünyada sülhün və rifahın bərqərar olmasında, Türk-İslam mənəviyyatının və mədəniyyətinin təbliği və təşviqi, habelə onun zəngin potensialından istifadə edilməsi sahələrində TDT Müsəlman Dini İdarə rəhbərləri Şurasının əhəmiyyətini xüsusi vurğulayıblar.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə çıxışında Prezident İlham Əliyevin salamlarını forumun təşkilatçılarına və iştirakçılarına çatdırıb, belə bir tədbirin keçirilməsinə xeyir-dua verən və dəstək olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə Azərbaycan dindarları adından dərin təşəkkürünü ifadə edib. QMİ sədri deyib ki, müdrik siyasi liderlər İlham Əliyev ilə Şavkat Mirziyoyev arasındakı dostluq, qardaşlıq münasibətləri sayəsində dövlətlərimizin və xalqlarımızın hərtərəfli əməkdaşlıq əlaqələri daha da möhkəmlənir, inkişaf edir.

Şeyxülislam A.Paşazadə Azərbaycan torpaqlarının erməni işğalından azad olunduqdan sonra Şavkat Mirziyoyevin Şuşanı ziyarət etməsini, Füzuli şəhərində özbək xalqının hədiyyəsi olaraq tikilmiş Mirzə Uluqbəy adına məktəbin açılışında Prezident İlham Əliyevlə birgə iştirakını əsl qardaşlıq nümunəsi kimi dəyərləndirib.

Görüşün sonunda Şura üzvləri “İslam ekstremizmə qarşı” Sənədini yekdilliklə qəbul edib və imzalayıblar.

Görüşdə QMİ sədrinə Özbəkistan Beynəlxalq İslam Universitetinin fəxri doktoru adı və diplomu təqdim olunub.

***

Tədbir çərçivəsində A. Paşazadə Özbəkistan Prezidentinin müşaviri Müzəffər Kamilov, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Xoliknazar, Türkiyə Diyanət İşləri Başqanı Ali Erbaş, TDT Baş katibi Kubanıçbek Ömüraliyev ilə ikitərəfli görüşlər keçirib.

Xatırladaq ki, TDT-nin Müsəlman dini idarə rəhbərlərinin növbəti – 5-ci görüşü Qazaxıstanda keçiriləcək.

***XQ***

# “ASAN xidmət”in “Peşəkar 100 il” idarəçilik marafonu



**Dünən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN İnnovativ İnkişaf Mərkəzi tərəfindən reallaşdırılan “Peşəkar 100 il” idarəçilik marafonunun açılış mərasimi keçirilib.**

Tədbirdə Baş nazirin müavini Əli Əhmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN Xidmət") sədri Ülvi Mehdiyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak ediblər.

Marafonda məqsəd ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş layihənin məqsədi gənc menecerləri Ulu öndərin zəngin idarəçilik təcrübəsi ilə tanış etməklə onların kadr potensialının formalaşmasına dəstək olmaqdır.

Qonaqlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ümummilli lider Heydər Əliyevin milli dövlətçilik tariximizdəki zəngin siyasi irsindən və idarəçilik təcrübəsindən söz açıblar. Diqqətə çatdırılıb ki, məhz Ulu öndərin məqsədyönlü və müasir idarəçilik modeli Azərbaycan xalqının milli rifahının daha da yaxşılaşmasına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə hədəflənib.

***XQ***

# Xətaidə yubiley aksiyası



**Xətai rayonunda yaşıllıq zolaqlarının artırılması, ekoloji tarazlığın bərpası və ətraf mühitin mühafizəsi istiqamətində işlər davam etdirilir.**

Dünən Xətai rayonu 265, 194 saylı tam orta məktəblərin həyətləri, Gəncə prospekti 39 və Q.Nəbi küçələrində Ümummili Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.

Tədbirdə Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon bələdiyyələrinin, MKTB-nin və məktəb kollektivləri iştirak ediblər. Aksiyada, ümumilikdə, 800 ədəd ağac əkilib.

***XQ***

# Bank kartınızı qoruyun!

**Kimsə sizə “onlayn iş fürsəti var, pul köçürmələrindən qazana bilərsiniz” – desə, qoşulmayın! Hamısı yalandır!**



Bunu Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Elşad Hacıyev kiberonlayn talamalarla bağlı vətəndaşlara müraciətində deyib.

“Kimsə sizə satdığınız əşya, yaxud daşınmaz əmlakla bağlı “bank kartı nömrənizi göndərin, beh verim” – desə göndərməyin! Kimsə sizə “kampaniya var – ucuz məhsullar var, ünvana pulsuz çatdırılır, onlayn ödəniş edin” – desə etməyin! Kimsə sizə “bank kartı nömrənizi göndərin yardım edəcəyəm”, – desə göndərməyin!

Çağırış edirik, dəstək xahiş edirik. Vətəndaşları məlumatdırmalıyıq: Kömək edin!”, – deyə xidmət rəisi bildirib.

***XQ***

# Azərbaycan – Macarıstan iqtisadi əlaqələri dostluğumuzu möhkəmləndirir

## *Cəbrayıl rayonunun Soltanlı kəndində tikiləcək məktəb isə bu ölkənin respublikamıza hədiyyəsi olacaq*



*(əvvəli 1-ci səhifədə)*

Xatırladaq ki, bir neçə gün əvvəl işğaldan azad olunan Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasimi Macarıstanla birgə həyata keçirilib, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı nəzərdə tutulub.

Xatırladaq ki, Soltanlı kəndi Araz çayının sahilində, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd yolunun üzərində yerləşir. Beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu kəndin şimal hissəsinə bitişik ərazidən keçir. Həmçinin "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Soltanlının yaxınlığında salınır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən Soltanlı kəndinin yenidən qurulması mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə kəndə qayıdacaq 1336 sakinin yaşayışını təmin etmək məqsədilə 315 fərdi ev 78 hektar ərazidə tikiləcək.

Kəndin layihəsində yaşayış və ictimai binaların memarlıq həlləri onun təkrarsız və özünəməxsus simasını formalaşdıracaq. Tətbiq ediləcək memarlıq üslubları, rəng koloriti, istifadə olunan materiallar, ahəngdarlıq, milli motivlər bütövlükdə əlaqəli, tamamlanan ictimai və yaşayış məkanlarının yaranmasını təmin edəcək.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev təməlqoyma mərasimində Soltanlı kəndinin strateji mövqedə yerləşdiyini, buradan əsas avtomobil və dəmir yolu xətlərinin keçdiyini bildirib. Prezidentin xüsusi nümayəndəsi, eyni zamanda, hazırda Cəbrayıl rayonunun Şükürbəyli və Horovlu kəndlərinin tikildiyini, Xudafərin qəsəbəsində inşaat işlərinə başlanıldığını da vurğulayıb.

İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının əyani təsdiqi kimi diqqət çəkən bəzi məqamlara nəzər salaq. Əvvəlcə onu qeyd edək ki, tərəflər arasında əmtəə dövriyyəsinin həcmi son illərdə geniş həcmdə artıb. Belə ki, 2021-ci ildə Azərbaycan ilə dost ölkə arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon dollar təşkil edib. Keçən il bu göstərici 47,4 milyon dollara çatıb. Cari ilin ilk yarısında isə iki ölkə tərəfindən 23 milyard 990 milyon dollarlıq ticarət aparılıb. Yeri gəlmişkən, iki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsi idxalın payına düşüb. Başqa sözlə, əməkdaşlıqda 45 milyon dollar idxal, 2,3 milyon dollardan bir qədər artıq isə ixrac təşkil edilib.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Bu gün Azərbaycan–Macarıstan arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycanın isə dost ölkəyə 18,1 milyon ABŞ dolları həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Ümumiyyətlə, Macarıstanın Azərbaycana yatırdığı investisiyanın respublikamızın bu ölkəyə qoyduğu sərmayədən 55 dəfə çox olması (1,1 milyard dollar və 18 milyon dollar), yuxarıda qeyd etdiyimiz kimi, Ələt Azad İqtisadi Zonası ilə Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumunun imzalanması, düşməndən təmizlənən ərazilərimizdə minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə 25 min avro ianə etməsi, indi isə Cəbrayıl rayonunun Soltanlı kəndinin bərpasına qoşulması və digər çoxsaylı məqamlar tərəflər arasında iqtisadi münasibətlərin dinamik inkişafından xəbər verir.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda ötən il dekabrın 17-də Buxarestdə imzalanan Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan Hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair müvafiq Saziş xüsusi yer tutur. Həmin tarixi sənədə əsaslanılaraq adları çəkilən ölkələr arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi ilə bağlı layihənin icrası istiqamətində səylər hazırda uğurla davam etdirilir. Bununla da 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır.

Sözügedən "yaşıl enerji" layihəsinin gerçəkləşməsi region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarını genişləndirəcək, eyni zamanda, Xəzər dənizinin respublikamıza aid sektorundakı zəngin külək enerjisi potensialı Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsini gerçəkləşdirəcək.

Bütün bu deyilənlərdən belə bir qənaət hasil olur ki, Azərbaycanla Macarıstan arasında əməkdaşlıq təkcə qaz tədarükü, eləcə də "yaşıl enerji"nin inkişafı və təchizatı ilə məhdudlaşmır. İki ölkə arasında sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait var və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu, isə Azərbaycan–Macarıstan əlaqələrinin getdikcə genişlənməsini, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsini şərtləndirir.

İqtisadiyyat Nazirliyində bu günlərdə nazir Mikayıl Cabbarovun Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə keçirdiyi görüşdə də Azərbaycan–Macarıstan iqtisadi əlaqələrinin müsbət dinamikası, iqtisadiyyatın müxtəlif sahələrində reallaşdırılan birgə təşəbbüslər yüksək dəyərləndirilib, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və dost ölkənin "Hell Energy" şirkəti arasında imzalanan investisiya müqaviləsinin hər iki dövlətin biznes dairələrinin səmərəli əməkdaşlığına müsbət təsiri vurğulanıb. Bütün bunlarla bərabər, görüşdə enerji sahəsində əməkdaşlığın perspektivləri, iqtisadi-ticarət tərəfdaşlığının gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Bundan başqa yeni biznes təşəbbüslərinin və investisiyaların təşviqi, "yaşıl enerji", əczaçılıq, işğaldan azad olunan ərazilərimizin bərpasında Macarıstan şirkətlərinin iştirakı və s. məsələlər müzakirə edilib.



# "Ümid" yatağı "mavi yanacaq" xəzinəsidir

## *Ötən 12 ildə buradan 8,2 milyard kubmetr qaz çıxarılıb*

**2012-ci ildə istismara verilmiş "Ümid"qaz-kondensat yatağından indiyədək, təqribən, 8,2 milyard kubmetr qaz və 1,3 milyon tona yaxın kondensat hasil edilib.**

Energetika Nazirliyindən verilən məlumata görə, hazırda yataqdan sutkada orta hesabla 6,7 milyon kubmetr qaz və 800 tondan artıq kondensat çıxarılır. Yatağın ehtiyatları isə 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat həcmində qiymətləndirilir.

"Ümid" yatağı 2010-cu il noyabrın 24-də kəşf edilib. Bu, Azərbaycanın müstəqillik dövründə SOCAR tərəfindən kəşf edilən ilk qaz-kondensat yatağı kimi tarixə düşüb. "Ümid" perspektivli struktur kimi isə 1953-cü ildə Azərbaycan geoloqları tərəfindən aparılan kəşfiyyat işləri zamanı müəyyən edilib.

Qeyd edək ki, Xəzər dənizi akvatoriyasında, Bakı şəhərindən 75 km cənubda yerləşən "Ümid" yatağının sahəsi 45 kvadratkilometr, strukturun ərazisində dənizin dərinliyi isə 40-60 metr təşkil edir.

# Özəlləşdirmədən büdcəyə bu il 130 milyon manat daxil olub

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən aldığımız məlumata görə, cari ilin yanvar–oktyabr aylarında özəlləşdirmə və icarədən dövlət büdcəsinə 130 milyon manatın ödənilməsi təmin edilib.**



Məlumatda bildirilir ki, hesabat dövründə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 49 hərrac keçirilib. Hərraclarda 9 səhmdar cəmiyyətinin səhm paketi, 14 kiçik dövlət müəssisəsi, 3 yarımçıq tikili sahəsi, 443 nəqliyyat vasitəsi özəlləşdirilib. Bundan başqa 10 ayda hərraca çıxarılan dövlət əmlakı üzrə 275 elektron sifariş qəbul edilib, hərraclarda iştirak məqsədilə 59 onlayn qoşulma reallaşıb.

Daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən bu ilin 10 ayı ərzində dövlət büdcəsinə 27,2 milyon manat ödənib. İcarədən daxilolmalar isə ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 dəfə artıb.

***XQ***

# Bakı Limanının Avrasiya məkanında mövqeyi güclənir

## *Bu dəniz qapısının illik yükaşırma qabiliyyəti 25 milyon tona çatdırılacaq*

**Ölkəmizin ərazisindən keçən qlobal nəqliyyat dəhlizlərinin funksionallığının artırılmasına mühüm töhfələr verən Bakı Limanında yaxın zamanlarda beynəlxalq "Shipping line" mərkəzinin və onun depolarının yaradılması planlaşdırılır. Bu barədə mətbuata "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin strateji planlaşdırma və inkişaf departamentinin müdiri Xudayar Həsənli məlumat verib. Hazırda bir sıra şirkətlərlə danışıqların aparıldığını deyən liman rəsmisi artıq bununla bağlı ilkin müqavilənin də imzalandığını bildirib.**



X.Həsənlinin sözlərinə görə, Mərkəzi Asiyadan gələn yüklər regional konteynerlərlə üçüncü ölkələrə daşına bilməz: "Bu yüklər boşaldılmalı, daha sonra "Shipping line" konteynerlərinə yüklənməlidir. Bakı Limanında "Shipping line" mərkəzi yaradırıq ki, birbaşa "Shipping line" konteynerləri ilə işləyək, dünyanın istənilən nöqtəsinə fasiləsiz yük göndərək. Regional konteynerlərlə yük göndəriləndə onlar geri qaytarılmalıdır. Konteynerin geri qayıtması isə xərcdir, lakin "Shipping line"ların bütün dünyada mərkəzləri, depoları var, onlar bu depolarda konteynerlərini saxlaya bilirlər, – deyə o əlavə edib. Yeri gəlmişkən, "Shipping line" karqo yüklərini limandan təyinat nöqtəsinə çatdırmaqla gəmiləri idarə edən şirkətdir və dünya üzrə dəniz nəqliyyatı ilə daşınan yüklərin 95 faizi məhz onun payına düşür.

Qeyd edək ki, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" 1902-ci ildən fəaliyyət göstərən Bakı Limanının bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 16 min manatdır. Liman yük, neft və bərə terminallarından ibarətdir. 2018-ci il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş yeni Bakı Limanının birinci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir.

Prezident İlham Əliyev müsahibələrinin birində bildirmişdi ki, son 10 il ərzində Azərbaycan Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa edib. Son illər ölkəmizin regionun əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməsi bütün yol infrastrukturu kimi, Bakı Limanının da imkanlarının genişləndirilməsi zərurətini yaradır. Bu məqsədlə yaxın illərdə limanın mövcud yükaşırma qabiliyyətinin iki dəfəyə yaxın artırılması nəzərdə tutulur. Hazırda limanın tikintisinin 2-ci mərhələsinin layihələndirilməsi həyata keçirilir. Bu işlərin isə ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Layihə hazırlandıqdan sonra model təqdim olunacaq və limanının inkişafı buna uyğun olaraq davam etdiriləcək.

Bakı Limanından bildiriblər ki, 2-ci mərhələ çərçivəsində konteyner daşımalarına xüsusi diqqət ayrılacaq. Yeri gəlmişkən, birinci mərhələ çərçivəsində limanda il ərzində 100 min konteyner aşırmaq mümkün idisə, ikinci mərhələ reallaşdırıldıqdan sonra isə bu göstərici 500 min konteynerə çatdırılacaq. Yaxın zamanlarda isə Bakı Limanında taxıl yük terminalının inşasına başlanılması planlaşdırılır. Limandan verilən məlumata görə, artıq investorların cəlb olunması üzrə aparılan danışıqlar və layihə işləri tamamlanıb.

Bununla yanaşı, hazırda Bakı Limanında inşası davam etdirilən mineral gübrə terminalında da son tamamlama işləri görülür. Terminalın ilin sonlarında istifadəyə verilməsi nəzərdə tutulur. Yeni terminalın illik gücü 1-1,5 milyon ton təşkil edəcək. Bununla da, mineral gübrələrin aşırılmasında limanın ümumi potensialı ildə 2,5 milyon tona çatdırılacaq. Bu isə Mərkəzi Asiyadan Qərbə daha çox mineral gübrə daşınmasına imkan yaratmaqla yanaşı, limanın yükaşırma qabiliyyətinin də xeyli artmasına səbəb olacaq. İkinci mərhələ üzrə nəzərdə tutulmuş işlərin yekunlaşdırılmasından sonra limandan ildə 25 milyon tona qədər yük aşırılacaq, 500 min TEU konteyner keçə biləcək.

Bakı Limanından XQ-yə verilən məlumata əsasən, 2022-ci ildə limandan 6,3 milyon ton, cari ilin 10 ayında isə 6,1 milyon tondan çox yük aşırılıb. Bu rəqəmin ilin sonuna qədər 7 milyon tonu keçəcəyi proqnozlaşdırılır.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"nda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində bir sıra yenidənqurma işlərinin aparılması nəzərdə tutulur. Belə ki, qarşıdakı 3 il ərzində liman ərazisindəki çeşidləmə məntəqəsində əlavə 4 dəmiryol xətti və konteyner terminalı tikiləcək ki, bu da yüklərin çeşidlənməsində operativliyin təmin edilməsinə imkan yaradacaq.

Bundan əlavə, sənədə əsasən, Bakı və Hövsan limanlarında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaq, Bakı Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaq, idxal və ixrac rejimli yüklər üzrə geniş funksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində Şərq−Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq. Eyni zamanda, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurları tətbiq ediləcək.

Regional qovşaq konsepsiyasına uyğun olaraq yük avtomobil nəqliyyat vasitələrinin bir mərkəzdə cəmləşməsi təmin ediləcək. Sənədə əsasən, Bakı Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işləri həyata keçiriləcək. Bu da limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişinə imkan yaradacaq. Fəaliyyət planında nəzərdə tutulan işlərin əsas iştirakçısı kimi Bakı Limanı çıxış edəcək. Bununla yanaşı, layihədə icraçı kimi İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri SOCAR və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti də iştirak edəcəklər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan regionun nəqliyyat habına çevrilir

## Son 1 ildə ölkə ərazisində tranzit daşımalar 75 faiz çoxalıb

*(əvvəli 1-ci səhifədə)*

Çin Xalq Respublikasının sədri Si Cinpin 2013-cü ilin sentyabr ayında "Bir kəmər–bir yol" təşəbbüsünü irəli sürdükdən sonra bu layihənin əhatə edəcəyi 60-dan çox ölkə içərisində onu ilk dəstəkləyən Azərbaycan olub. Prezident İlham Əliyev ümumi dəyəri 8 trilyon dollara çatan və Şərqlə Qərbi birləşdirən ən səmərəli yolların çəkilməsini nəzərdə tutan bu layihənin gələcəkdə ölkəmiz üçün nə demək olduğunu vaxtında uzaqgörənliklə müəyyənləşdirib. Layihənin elan edildiyi 2013-cü ilin sonlarında dövlətimizin başçısının Çinə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair "Anlaşma Memorandumu" imzalanıb.



Prezident İlham Əliyev bu layihəni reallaşdırmaq istəyən Çinin hədəflərinin nədən ibarət olduğunu yaxşı bilirdi. Xarici ticarət dövriyyəsinin həcmi 6,4 trilyon dollar olan dünya nəhəngi yüklərin uzun və bahalı su yolu ilə deyil, qısa və ucuz quru yollarla daşınmasına nail olaraq, bu sahədə inqilabi bir dönüş etmək istəyirdi. Bu layihənin reallaşdırılması ilə yükdaşıma xərclərinin üç dəfəyə qədər azalması, mənfəətin isə üç dəfəyə qədər artması proqnozlaşdırılırdı. Elə bu səbəbdən də Çin "Bir kəmər–bir yol" layihəsinə önəm verirdi.

Son 10 il ərzində Azərbaycan tranzit yüklərin ölkəmizin ərazisi ilə daşınması ilə bağlı iri infrastruktur layihələri reallaşdırıb, regionun nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində zəruri olan digər mühüm addımlar ataraq bu sahədə ciddi uğurlar qazanıb.

Bu istiqamətdə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində vacib infrastruktur obyektləri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Astara dəmiryol terminalı, Astaraçay üzərində dəmir yolu və avtomobil yolu körpüləri, eləcə də Rusiya Federasiyası ilə dövlət sərhədində Samur çayı üzərində avtomobil yolu körpüsü və beynəlxalq əhəmiyyətli avtomobil yollarının yenidən qurulması tədbirləri mühüm önəm daşıyır. Gerçəkləşdirilən bütün bu layihələr Azərbaycanın regionda etibarlı və təhlükəsiz tranzit ölkəyə çevrilməsinə zəmin yaradıb.

Rusiya ilə Ukrayna arasında davam edən müharibə səbəbindən regionda baş verən geosiyasi proseslər Şərqlə Qərb arasında tranzit yükdaşımalardan da yan keçməyib. Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar nəticəsində Şərqlə Qərb arasında Rusiyanın ərazisindən keçən ənənəvi marşrutlarda ciddi problemlər yaşanıb. Başqa sözlə, sanksiyalara görə, yüklərin bu ölkənin ərazisindən daşınması çətinləşib. Bu səbəbdən son vaxtlar Azərbaycan ərazisindən keçən dəhlizlər vasitəsilə tranzit yükdaşımaların həcmində kəskin artımlar müşahidə olunub. Belə ki, 2021-ci illə müqayisədə 2022-ci ildə respublikamızın ərazisindən keçən dəmir, dəniz və avtomobil yolları ilə tranzit yükdaşımaların ümumi həcmi 75 faiz artaraq 10,7 milyon tona çatıb.

Belə bir vəziyyətdə Azərbaycan hökuməti Şərqlə Qərb arasında yükdaşımalarda artan tələbatın qarşılanması məqsədilə ölkəmizin tranzit potensialının daha da gücləndirilməsi istiqamətində operativ addımlar atmaq qərarına gəldi. Bu məqsədlə hökumət Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsini qısa və orta müddətli perspektivdə gerçəkləşdirə biləcək tədbirləri özündə ehtiva edən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün fəaliyyət planı"nı hazırladı.

Prezident İlham Əliyevin 2023-cü il 23 noyabr tarixli sərəncamı ilə təsdiq edilən bu sənədin əsas hədəfi mövcud infrastrukturun təkmilləşdirilməsi, tranzit əməliyyatları zamanı inzibati prosedurların optimallaşdırılması, aidiyyəti dövlət orqanları arasında koordinasiyanın yaxşılaşdırılması və bütün bu proseslərin vahid platforma üzərindən idarə olunmasıdır. Məqsəd tranzit daşımalar zamanı sərhədkeçmə müddətinin minimuma endirmək, eləcə də sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə Azərbaycan Respublikasının ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2024–2026-cı illər ərzində 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırmaqdan ibarətdir. Azərbaycan bütün bunlarla Şərqlə Qərb arasında yükdaşımaların həcminin yaxın, orta və uzaq perspektivdə yüksələn xətlə artmasının əsasını qoyub.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru,***
***professor***

# Şuşanın su qıtlığı arxada qalır...

**Azərbaycanda infrastruktur quruculuğunun əsas sahələrindən olan su təchizatı sferasında mühüm işlər görülür. Bu istiqamətdə dövlətin birbaşa dəstəyi ilə yeni sututarların yaradılması və şəbəkə infrastrukturunun genişləndirilməsi üzrə iri layihələr icra edilir.**

**Həyata keçirilən tədbirlər hesabına su təsərrüfatı sisteminin inkişafı sürətlənib. İşğaldan azad edilmiş ərazilərdə əhalinin fasiləsiz içməli su ilə təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bunu Şuşa şəhərində daha aydın görmək olar. Bu barədə əslən şuşalı olan Tahirə Məmmədova dedi:**

– Şuşa şəhəri salındıqdan sonra onun əhalisi sürətlə artmış və o Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənahəli xanın hakimiyyəti dövründə (1747-1763) şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın dövründə (1763-1806-cı illər) isə Qarabağ xanlığı daha da güclənmiş, əhalinin sayı artmışdı.

Şəhər çar Rusiyasının işğalı dövründə də genişlənmiş, ətraf ərazilərdən şəhərə köçənlərin sayı artmışdı. Bu dövrdə əhali içməli suya olan tələbatını həyətlərdə qazılmış quyular vasitəsilə təmin etməyə çalışırdı. Lakin bu suların



əksəriyyəti duzlu olduğu üçün içməyə yararlı deyildi. Şəhərdə yalnız iki içməli su quyusu var idi. Bu isə şəhərin suya tələbatını ödəmirdi. Buna görə də insanlar suya olan ehtiyaclarını şəhərdən 3-4 kilometr uzaqlıqda olan dağlardan, Daşaltı və Xələfli çaylarının sahillərindəki çeşmələrdən təmin edirdilər. Onlar bu çeşmələrdən tuluqlara su doldurub şəhərə daşıyırdılar. Əhalinin sayı artıqca onların içməli su təminatı da çətinləşirdi. Şəhərin varlıları çıxış yolunu müxtəlif su bulaqlarının tikilməsində görürdülər. Onların arasında Xurşidbanu Natəvan da vardı. Onun tikdirdiyi "Xan qızı" bulağı daha məşhur idi. 1873-cü ildə istifadəyə verilmiş bu bulağa su saxsı borularla Sarıbaba dağının ətəyindən gətirilmişdi.

Şuşada içməli suyu ilə fərqlənən digər bulağı 1899-cu ildə Hacı Nəsir Rza oğlu Çöl qala məhəllə məscidinin qarşısındakı açıq meydanda daşdan tikdirmişdi. Daha bir bulağın suyu da şuşalılar arasında məşhur idi. Bu, "İsa bulağı"dır. Şuşa şəhərindən 2 kilometr aralıda, meşədə



yerləşən bulaq Azərbaycan təbiətinin nadir incilərindən sayılır. Yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.

Şuşadakı bulaqların əksəriyyətinin suyu şorluğu ilə seçilib. Hətta onlardan biri "Şor bulaq" adlanır. Bulaq 1854-cü ildə Şuşanın varlı şəxslərindən olan Rəsibala Zəkəriyyə tərəfindən çəkilib. Suyu bir qədər şor olduğundan əhali arasında ona belə ad verilib.

Şuşada olarkən dəfələrlə Çuxur məhəllə bulağını da ziyarət etmişəm. Bu bulağın tarixi daha qədimdir. İkigözlü bulaq 1791-ci ildə məhəllənin varlı, tanınmış insanları tərəfindən inşa edilib.

Ümumiyyətlə, Şuşanın işğalından əvvəl 17 məhəllənin hər birində bulaq var idi. Onlar şəhər əhalisinin suya olan tələbatının təmin edilməsində müəyyən rol oynayırdı. Lakin Şuşa erməni işğalı altında olduğu 30 il müddətində onlar baxımsız qalıb, əksəriyyətinin suyu quruyub.

Şuşa ikinci Qarabağ müharibəsi dövründə azad edildikdən sonra bulaqlarda təmir işləri aparılıb və bəziləri yenidən insanların istifadəsinə verilib. Onlardan biri də "Xan qızı" bulağıdır. Prezident İlham Əliyev və ailə üzvləri Şuşada olarkən bulağın suyundan da içiblər. Dövlətimizin başçısı həmin vaxt deyib: "Natəvan bulağından yenə su gəlir. Natəvan bulağını bərpa etmişik. Yenə də bulaq Şuşa sakinlərinin, qonaqların sərəncamına veriləcəkdir. Mənfur düşmən bu bulağı qurutmuşdu, bütün bulaqları qurutmuşdu. Bu da onu göstərir ki, Şuşa həmişə ermənilər üçün yad şəhər olub. İndi isə Şuşa dirçəlir və Şuşanın rəmzlərindən biri olan "Xan qızı" bulağı bərpa edilib".

Bərpa edilən bulaqlardan biri də "İsa bulağı"dır. Amma "Şor bulaq" barədə bunu demək olmur. Şəhər azad edildikdən sonra bulağın məhv edildiyi bəlli olub.

Tahirə Məmmədovanın sözlərinə görə, şəhərdə əhalinin sayı artıqca yeni içməli su mənbələrinə ehtiyac yaranacaq. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri sürətlə davam etdirilir.

– Yaşayış kompleksinin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır. Gələn ilin birinci rübündən isə əhalinin Şuşaya köçürülməsinə başlanılacaq. Bu, 400-ə yaxın ailəni əhatə edəcək. Şuşa şəhərinin yeni Baş planına uyğun olaraq şəhərdə 20-25 min insanın məskunlaşması nəzərdə tutulur.

Bəs şəhərin içməli su təmiminatı necə həll olunur? Qeyd edək ki, Şuşa şəhərinin içməli su təchizatını təmin etmək üçün 1980-ci illərdə Kiçik Kirs–Şuşa magistral su kəməri istifadəyə verilib. Bu kəmər şəhərin içməli su probleminin həllində önəmli rol oynayıb. Vətən müharibəsi dövründə düşmən qüvvələri şəhəri tərk edərkən magistral su kəmərini də sıradan çıxarıblar.

Yaranmış içməli su probleminin həlli məqsədilə ilkin olaraq Daşaltı kəndinin içməli su təchizatı bərpa edilib və Şuşa şəhərini müvəqqəti olaraq maşınlarla su ilə təmin etmək üçün Daşaltıda sudoldurucu məntəqə yaradılıb. Kiçik Kirs və Zarıslı mənbələrində, eləcə də Kiçik Kirs – Şuşa və Zarıslı – Şuşa magistral su kəmərlərinin qəzalı hissələri bərpa edilib və bundan sonra hər iki mənbədən şəhərə suyun verilməsi təmin edilib. Eyni zamanda, şəhərin perspektiv inkişafı, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı anbar, nasos stan-



siyası və 2,9 kilometr uzunluğunda yeni təzyiqli kəmər inşa edilib və 2022-ci ilin dekabrında yeni mənbədən şəhərə suyun verilməsi təmin olunub.

Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına görə, qurum tərəfindən icra olunan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsindən perspektiv inkişaf nəzərə alınmaqla 25 min nəfər faydalanacaq. Layihəyə əsasən, şəhərin içməli su tələbatı mövcud Kiçik Kirs, Zarıslı mənbələri və 2022-ci ildə istismara verilmiş Zarıslıçay su anbarı hesabına ödəniləcək. Bu mənbələrdən götürülən suların toplanaraq optimal paylanması, eləcə də şəhərin su təchizatında dayanıqlığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib. Artıq birinci anbarın tikintisi yekunlaşıb və anbarın giriş-çıxış xətləri quraşdırılıb. Hazırda su anbarında izolyasiya işləri aparılır və yardımçı binaların tikintisi davam etdirilir. Ümumilikdə su anbarının inşasının cari ilin sonuna qədər yekunlaşdırılması planlaşdırılıb. Şuşa şəhərində yaradılan yeni infrastruktur isə "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək.

Bu barədə "Azərsu" ASC-nin mətbuat katibi Anar Cəbrayıllı dedi ki, işğaldan azad edilmiş ərazilərdə içməli su mənbələri ilə bağlı heç bir problem yoxdur, çünki orada yeraltı və yerüstü su mənbələri var: – Keyfiyyət də tam standartlara uyğundur. Ona görə də əlavə bir çətinliyimizin olacağını düşünmürük. Su Şuşaya həyat, bolluq gətirəcək

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Şəmkir xurmasının sorağı Sibirdən gəlir

## Şəmkirlilər xarici bazara çıxmaqla ölkəyə valyuta gətirir, yaxşı da dolanırlar

**Hara baxırsan irili-xırdalı istixanalar, meyvə bağları, taxıl zəmiləri, tərəvəz sahələridir… Başqa rayonlarla müqayisədə Şəmkir xarici bazara, xüsusilə Rusiya bazarlarına daha çox çıxmaqla son illər əməlli-başlı barlı-bərəkətli, varlı rayonlardan birinə çevrilib. Hər il ucaldılan bir-birindən yaraşıqlı fərdi yaşayış binalarını, bahalı avtomobilləri şəmkirlilər halal zəhmətlə, alın təri ilə qazanıblar. Burada çox nadir hallarda gününü çayxanalarda keçirən, boş-bekar gəzən insana rast gələ bilərsən. Çünki torpaqla, onun əkib-becərilməsi ilə məşğuldurlar və bilirlər ki, bin-bərəkət də torpaqdadır. Onlar heç vaxt "iş yoxdur, nə edək?" deyə gileylənməzlər.**

Qeyd edək ki, rayonda, ümumiyyətlə, aqrar sektorun mühüm sahələrindən olan meyvəçiliyə maraq ilbəil artır. Hazırda Şəmkirdə 5 min hektardan çox meyvə və giləmeyvə bağları var. Lakin görünür, bu də son hədd olmayacaq. Çünki rayon rəhbərliyi innovativ texnologiyanın Şəmkirə gətirilməsində maraqlıdır. Müxtəlif tədbirlər, razılaşmalar, nazirliklər və şirkətlərlə əlaqələr bu məqsədə yönəlib. Suvarma sistemindəki yeniliklər, şitilliklərin becərilməsi, məhsuldar toxumların gətirilməsi, dərman peraparatlarının alınması işindəki problemlər tədricən aradan qaldırılır ki, bu da adamların torpağa daha çox bağlanmasına gətirib çıxarır.







Rayon rəhbərliyi, digər qurumlar tərəfindən də şəmkirlilərə diqqət, kömək həmişə var. Kənar, əsassız müdaxilələr qətiyyən yoxdur. Digər tərəfdən şəmkirlilər öz hüquqlarını yaxşı bilən, qanunlardan hərtərəfli istifadə etməyi bacaran insanlardır. Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyevlə bir dəfə bu mövzuda söhbət edərkən dedi ki, Şəmkir camaatının bu keyfiyyəti çox xoşuna gəlir. Çünki onlar ölkədə kəndliyə, torpaq sahibinə, sahibkara, digər iş adamına yaradılan geniş və hərtəfli imkanlardan maksimum yararlanmağı bacarırlar. Belə olmasaydı yetişdirdikləri xiyar-pomidor, xurma Sibirədək gedib çıxardımı?!

İndi budur, Şəmkirin xurma bağlarında məhsul yığımı sona çatmaq üzrədir. Havaların əlverişli keçməsi və göstərilən aqrotexniki qulluq nəticəsində, demək olar ki, Şəmkirin hər yerində bol məhsul yetişdirilib.

Əsasən fərdi təsərrüfatlarda yetişdirilən xurma iş adamları tərəfindən kənd sakinlərindən münasib qiymətə alınır, qablaşdırılır və Rusiyaya ixrac edilir.

Təsərrüfat sahibləri bu il rayonun 1800 hektardan çox bar verən xurma bağlarından, orta hesabla, 150-170 sentner məhsul götürüblər. Onlar alıcı sarıdan da korluq çəkmirlər. Bağbanlar məhsulu elə yerindəcə, yəni meyvə bağındaca müştərilərə satırlar.

Cari ildə Şəmkirdə mövcud olan 1842 hektar xurma bağlarından 32 min 461 tondan çox məhsul yığılıb. Ən diqqətçəkən və başqa rayonlara nümunə olan cəhət isə məhsulların əhəmiyyətli hissəsinin xarici bazarlara ixrac olunmasıdır ki, bu da ölkəyə valyuta axınına səbəb olur.

Vacib sahəyə maraq yeni iş yerlərinin açılmasına müsbət təsir göstərir. Ayrı-ayrı fərdi təsərrüfat rəhbərləri, sahibkarlar yuxarıda adlarını çəkdiyimiz məhsulların yetişdirilməsi, yığılması və daşınması üçün minlərlə adamı işə cəlb edirlər. Yəni özləri də dolanır, həmyerliləri də.

…Şəmkirin bu günü gözəldir, sabahı daha işıqlıdır. Çünki bu yerlərin adamları torpağı ram etməyi bacarıblar…

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Şəmkir.**

# Səhiyyə sahəsində dövlət siyasəti: qabaqcıl yanaşma, beynəlxalq standartların tətbiqi

**Cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında səhiyyənin rolu böyükdür. Bir neçə ildir ki, Azərbaycan səhiyyəsi həm dövlət, həm də özəl sektorun inkişafı ilə yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə ötən 10 ilə yaxın dövrdə iqtisadi irəliləyiş səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunması problemlərinin davamlı həllinə nail olmağa imkan yaradıb. Ölkə rəhbərliyi tərəfindən müəyyən edilən uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi səhiyyənin inkişafını, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təmin olunmasını təmin etmək üçün genişmiqyaslı islahatlar həyata keçirilir.**




Ölkə əhalisinin keyfiyyətli və əlverişli şərtlərlə tibbi xidmətlə təmin olunması "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında xüsusi yer tutur. Sənəddə səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatlarının planlı şəkildə davamı nəzərdə tutulub. Ötən illərdə bu sahədə əhalinin narahatlığına səbəb olan xeyli problem artıq öz həllini tapıb.

Müasir Azərbaycan səhiyyəsində ardıcıl olaraq həyata keçirilən islahatlar dövlətin birbaşa dəstəyi və hazırladığı proqramlar əsasında reallaşır. Əhalinin, xüsusilə, aztəminatlı təbəqənin son illərə qədər səhiyyə xidmətlərinə əlçatanlığı aşağı olsa da, həyata keçirilən proqramlar, reallaşdırılan layihələr, nəzərdə tutulan irimiqyaslı işlər bu sahədə vəziyyəti xeyli dəyişib. Səhiyyədə irimiqyaslı islahatların aparılması üçün dövlətin iqtisadi imkanlarının artması vacib idi. Bu baxımdan ölkə iqtisadiyyatında sürətli inkişafın başlaması ilə paralel səhiyyə islahatları 2004-cü ildən etibarən daha da genişlənib.

Bu gün Azərbaycanın səhiyyə müəssisələrində istifadə edilən avadanlıqlar dünyanın aparıcı klinikalarındakından geri qalmır. Xəstəxanalar dünya standartlarına uyğunlaşdırılıb. Yeni tikilən, təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən müasir cihazlar gətirilir. Təbii ki, bütün bunlar tibb təhsili sistemində də uyğun dəyişiklikləri, həmin avadanlıqlarla işləyə bilən həkimlərin peşəkarlığının artırılmasını tələb edir.

Son illər dünya miqyasında tibb elminin sürətlə inkişafı təhsil sistemində belə dəyişiklikləri labüd edib. Son 20–30 ildə dünya tibb elminin inkişafı nəticəsində əldə olunan böyük elmi nailiyyətlər sırasına xəstəliklərin yaranma səbəblərinin aşkarlanmasına müasir baxışlar, yeni diaqnostika, müalicə üsulları və vasitələri əlavə edilib. 30 il öncə aparıcı müayinə rentgen idisə, indi USM, KT, MRT və digər müayinə üsullarından istifadə olunur.

Dövlət başçısının səhiyyə sahəsindəki islahatlara stimul verən "Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncamında ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasətin əhaliyə göstərilən tibbi xidmətlərin müasir standartlara çatdırılmasına, bu sistemin maddi-texniki bazasının möhkəmləndirilməsinə əlverişli zəmin yaratdığı bildirilir. Səhiyyə sahəsində əsas xəstəliklərin profilaktikası üzrə bir sıra dövlət proqramları qəbul edilib və onların icrasının maliyyə təminatı məsələləri həll olunub.

Həmçinin sənəddə qeyd edilir ki, səhiyyə sisteminin maliyyələşdirilməsi prinsipləri üzrə köklü islahatlar həyata keçirilmədən, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin arzuolunan səviyyəyə çatdırılması mümkün deyil. Buna görə də ölkəmizin səhiyyə sisteminin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslarını yaratmaq, bu sahənin idarə olunmasını təkmilləşdirmək, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və icbari tibbi sığortanın tətbiqinə başlamaq barədə qərar qəbul edilib.

Konsepsiyada tibbin bütün sahələri əhatə edilməklə, ictimaiyyətin maraqlarına da önəm verilib. Bu sahəyə hər il böyük həcmdə investisiyalar yatırılır. Səhiyyəyə ayrılan büdcə vəsaiti son 10 il ərzində 11 dəfədən çox artıb. Böyük əksəriyyəti respublikanın bölgələrində olan, müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 700-ə yaxın səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib, yoluxucu xəstəliklərlə mübarizə işində mühüm nəticələr əldə olunub. Hazırda ölkəmizdə 33 minədək həkim, 54 minə qədər tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanır. Ana və uşaq ölümünün səviyyəsi bir neçə dəfə aşağı salınıb. Belə ki, 2013-cü illə müqayisədə 5 yaşadək uşaq ölümü 2234-dən 1256-ya, ana ölümü 25 nəfərdən 18-ə düşüb.

Koronavirus pandemiyası dövründə Azərbaycan səhiyyə sisteminin dayanıqlılığı, həkimlərimizin bacarığı və fədakarlığı bir daha təsdiqləndi. Həmin dövrdə virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibbi avadanlıqlar və ləvazimatlar ölkəyə gətirildi. Testlərin aparılması üçün çoxsaylı laboratoriya fəaliyyətə başladı. Azərbaycan 80-dən çox xarici ölkəyə maliyyə və humanitar yardım göstərdi, eyni zamanda beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verdi. Ölkəyə ən etibarlı vaksinlər gətirildi və 14 milyona yaxın peyvənd istifadə edildi.

Səhiyyə sistemində həyata keçirilən islahatların uğurla nəticələnməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsi ilə tanışlıq, tibbi idarə və müəssisələrini müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən Azərbaycan hökuməti ÜST(WHO), UNİCEF, USAİD-nin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi layihəsi, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Blumberq Təşəbbüsü Fondu, Dünya Bankı, Avropa Komissiyası, BMT-nin müvafiq strukturları və digər qurumlar ilə fəal əməkdaşlıq edir.

Dünyanın əksər ölkələrinin səhiyyə sistemi qarşısında duran vəzifə, həyata keçirilən islahat və dəyişikliklərin başlıca məqsədi tibbi yardımın keyfiyyətinin dünyada qəbul edilmiş yanaşma–standartlara uyğun yüksəldilməsidir. Keyfiyyətli tibbi yardım bir tərəfdən köhnəlikdən yaxa qurtarmağı, bütün dünyanın artıq çoxdan imtina etdiyi müalicə üsullarından əl çəkərək, innovasiyalara yol açmağı, digər tərəfdən isə, düşünülmüş addımlar atmağı nəzərdə tutur. 2020-ci ildən etibarən tibb müəssisələrində 20 keyfiyyət standartının tətbiq edilməsinə başlanıb və standartların sayı ilbəil artırılır.

Standartlar davamlı tibbi qayğı xidmətinin dəstəklənməsi üçün anlayışlar sistemidir, tibbi yardım göstərilməsi sahəsində qaydaları müəyyən edən bir vasitədir. Səhiyyə sisteminin fəaliyyətinin planlaşdırılması və maliyyələşdirilməsi, dövlət, səhiyyə sistemi və pasiyentlər arasında əlaqələr məhz bu əsas üzərində qurulmalıdır. Ölkə üçün müəyyən edilən tibbi yardım standartları ilə yanaşı, milli klinik protokollar da tərtib edilir. Bu protokollar hər hansı sindrom zamanı düzgün yardım göstərilməsi ilə bağlı qərar qəbul etməkdə həkimə kömək edən tövsiyələr toplusudur. Milli klinik protokollar həkimlərə hər hansı klinik situasiyada necə hərəkət etməyə istiqamət verir.

Tibbi standartların tətbiqinin əsas məqsədi ölkə əhalisinə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsidir. Yəni ölkənin istənilən nöqtəsində dövlət və ya özəl tibb müəssisəsinə müraciət etmiş vətəndaş zəmanətli şəkildə keyfiyyətli tibbi xidmətlə təmin olunmalıdır. Digər tərəfdən, bu standartlar lüzumsuz olaraq təyin edilən diaqnostik prosedurlar və dərman vasitələrinin həcmini minimuma endirməli, səhiyyəyə sərf olunan vəsaitlərin daha effektiv və səmərəli şəkildə istifadəsini təmin etməlidir. Hazırda tibb müəssisələrində informasiya-kommunikasiya texnologiyaları (İKT) infrastrukturu qurulub, İTS-nin məlumat bazası, habelə müvafiq proqram təminatı yaradılıb və geniş tətbiq edilib. Tibb müəssisələri kompüterlə təchiz olunub. Bununla yanaşı, səhiyyə göstəricilərinin izlənilməsi və əhalinin sağlamlıq durumunun öyrənilməsi məqsədi ilə 16 indikator tətbiq edilib. İndikatorlar səhiyyə xərclərinin analizi, maliyyə dayanıqlılığı, doğum və ölüm göstəriciləri və tibbi xidmətlərdən istifadə üzrə statistik məlumatları izləyir. Səhiyyə sistemində aparılan islahatlara Avropa Komissiyasının Azərbaycana dair Yaxın Qonşuluq Siyasəti təşəbbüsü çərçivəsində hazırlanan tərəqqi hesabatlarında son bir neçə ildir ki, davamlı olaraq müsbət rəy verilir.

Səhiyyə sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də Azərbaycanda əhali arasında məcburi tibbi sığortanın tətbiq edilməsi yönündə aparılan işlərdir. Bu məqsədlə beynəlxalq praktika öyrənilib, qanunvericilik bazası hazırlanıb. Hazırda ölkədə tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün, həmin xidmətlərə əhalinin əlçatanlığını təmin etmək məqsədi ilə icbari tibbi sığortanın tətbiqi həyata keçirilir. İcbari tibbi sığorta sisteminə əsasən, pensiyaçılar üçün tibbi sığorta haqqını Dövlət Sosial Müdafiə Fondu, işləməyən vətəndaşlar və sosial yardım alanlar üçün isə dövlət ödəyir. Nəticədə ölkə əhalisinin bütün təbəqələri tibbi sığorta xidmətləri şəbəkəsinə cəlb edilib və vətəndaşların səhiyyə xidmətlərinə əlçatanlığı təmin olunub.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amilinin dayandığını səhiyyədəki islahatlar bir daha təsdiq edir. Bu gün ölkəmizdə Mərkəzi Klinika, Talassemiya Mərkəzi, Milli Oftalmologiya Mərkəzi, Milli Onkologiya Mərkəzi, Qafqazda ən böyük tibb müəssisəsi–Yeni Klinika, Tibb Universitetinin klinikaları, paytaxtda və bölgələrdə ən son texnologiyalarla təchiz olunmuş diaqnostika mərkəzləri, digər çoxsaylı dövlət və özəl tibb müəssisələri əhaliyə lazımi tibbi xidmət göstərir. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi daim diqqət mərkəzindədir. Ölkə rəhbərliyinin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə xidmətin səviyyəsinin və əməkhaqlarının yüksəlməsinə təsir edir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Yazı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının "Bir ömür xidmətinizdə..." mövzusundakı birgə müsabiqəsinə təqdim edilir.**

---

**Epidemioloji durum**

**Ölkə ərazisində qızılca xəstəliyinə yoluxma hallarında artım müşahidə olunur. Bu barədə TƏBİB-in məlumatında bildirilib. Qeyd edilib ki, xəstəlik uşaqlarla bərabər, 40 yaşdan yuxarı əhali arasında da müşahidə olunduğuna görə təqvimdənkənar peyvənd kampaniyalarına başlanılıb.**

# Qızılca üstümüzə ayaq açmasın...

## Odur ki, valideynlər peyvənd təqviminə əməl etməlidirlər



Açıqlamada deyilir ki, qızılca xəstəliyinə yoluxmalarda belə artımlar Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən də proqnozlaşdırılıb. Avropa regionunda yoluxma payız–qış aylarında artıb. Buna səbəb uşaqların peyvənd yaş dövrünün COVID–19 pandemiyasına təsadüf etməsi olub, məhdudlaşdırma tədbirləri ilə bağlı olaraq onlara vaksin vurulmayıb.

Hazırda yoluxmalar məktəb və bağça yaşlı uşaqlar arasında üstünlük təşkil edir. Qızılca uşaqlıq dövrünün infeksion xəstəliklərindən hesab olunur, virus mənşəlidir, özüsağalan xəstəliklər qrupuna daxildir. Yəni bu, o deməkdir ki, xəstəliyin xüsusi spesifik müalicəsi yoxdur. Qızılca xaraktercə stasionar müalicəyə ehtiyacı olmayan, ev şəraitində izolyasiya şərti ilə müalicə edilən xəstəlikdir. Bu xəstələri Ailə sağlamlıq mərkəzlərinin və ərazi üzrə poliklinikaların həkimləri nəzarətə götürürlər. Ağırlaşma hallarında isə onlar TƏBİB-in müəssisələrində müalicəyə cəlb olunurlar. Müalicə xərcləri icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində ödənilir.

Qeyd edək ki, hazırda TƏBİB-in tabeliyində Bakı şəhəri üzrə 17, Sumqayıt şəhəri üzrə 2, regionlarda isə 48 yoluxucu xəstəliklər şöbəsi fəaliyyət göstərir, çarpayı sayı cəmi 1400-ə qədərdir. Bu günə olan məlumata əsasən, paytaxt ərazisində, Sumqayıtda və bütün regionlarda yoluxma sayları nəzarət altındadır, müvafiq şöbələrdə kifayət qədər boş çarpayılar, ağırlaşma hallarının idarə olunması və ehtiyac yaranan hallarda xəstələri tibbi xidmətlə təmin etmək üçün bütün resurslar mövcuddur. TƏBİB-in açıqlamasında o da bildirilir ki, ağırlaşma halları ilə müraciət edən xəstələrin əksəriyyəti qızılca əleyhinə peyvənd olunmayanlardır.

**Bakı şəhəri, 22 saylı şəhər poliklinikasının pediatrı Əsmər Məmmədova yaranmış vəziyyətlə bağlı bildirdi:**

– Qızılca xəstəliyinə qarşı spesifik vaksin var və milli peyvənd təqvimінə daxil edilib. Həmin peyvənd uşaqlara 12 aylığında və 6 yaşında vurulur. Bütün valideynlər uşaqlıqda bu mərhələni özləri də keçdiklərindən dəqiq bilirlər ki, xəstəliyə yoluxmadan, baş verə biləcək ağırlaşmalardan, onun gələcək fəsadlarından qorunmaq üçün vaksinasiya olduqca vacibdir. Qızılca əleyhinə peyvənd ölkəmizdə milli peyvənd təqviminə 1994-cü ildə daxil edilib və həmin vaxtdan başlayaraq, bütün Ailə sağlamlıq mərkəzlərində, ərazi üzrə poliklinikalarda dövlət hesabına, ödənişsiz həyata keçirilir.

Özəl klinikalar Fransa, Kanada və digər ölkələrdən gətirilən peyvəndlərə üstünlük verirlər. Vaksinlərin bəzisi ya qrip törədicisidir, ya da zəiflədilmiş törədici. Yad zülal olduğuna görə orqanizmdə müxtəlif reaksiyalar verə bilər. Qızılca sətəlcəm və beyin iltihabı kimi ağırlaşmalara da yol aça bilir və əsasən, uşaqlar arasında ciddi sağlamlıq riski yaradır. Bir sıra hallarda yoluxmuş şəxslərdə xəstəliyin ağırlaşma halları baş verə bilər. Bunlara pnevmoniya, orta qulağın iltihabı, bağırsaq mənşəli ağırlaşmalar, ensefalit, meningit və s. aiddir.

Qeyd edək ki, rəsmi statistikaya görə, son 3 ildə Azərbaycanda qızılcaya yoluxanların sayı minimuma enib. Dövlət Statistika Komitəsi 2019-cu ildə 337 xəstədə qızılca diaqnozu qeydə alındığını göstərmişdi. 2021-ci ildə qızılca qeydə alınmayıb, ötən il isə ölkədə cəmi bir yoluxma olub. 2020–2022-ci illərdə 3 nəfərə qızılca diaqnozu qoyulub. Statistika da göstərir ki, adətən, qızılca geniş yayılmır, lakin bəzən çox sayda yoluxma qeydə alınır. Bu, adıçəkilən xəstəliyin yoluxucu xarakteri ilə bağlıdır.

Ötən ay Zaqatala və Kürdəmir rayonlarında qızılcaya yoluxma ilə bağlı xəbərlər yayıldı. Bəzi saytlarda reallığı düzgün əks etdirməyən, qızılca alovlanmaları barədə "şok" informasiyalara rast gəlmək mümkün idi. İnsanların narahatlığını aradan qaldırmaq üçün TƏBİB mövzu ilə bağlı açıqlama verdi: "Zaqatala rayon Mərkəzi Xəstəxanasına 2023-cü il oktyabrın 11-dən noyabrın 17-dək qızılca simptomları ilə 64 müraciət daxil olub. Onlardan 46-sı müayinə edilərək ambulator müalicə üçün evə buraxılıb. Ambulator xəstələrdən 8-i uşaq olub. Bu müddət ərzində xəstəxanaya müraciət edən 19 nəfər (5-i uşaq olmaqla) stasionar müalicə alıb. Onlardan 10-u artıq evə buraxılıb, 9 xəstənin isə stasionar müalicəsi davam etdirilir". Bu açıqlamadan az sonra həmin xəstələr də sağalıb və evlərinə yola salınıblar.

Rəsmi məlumatlara istinadən deyə bilərik ki, hazırda xəstəliyə Zaqatala şəhərində, rayonun Kebeloba, Car, Yuxarı Tala, Aşağı Tala, Çobankol, Muxax, Gözbarax, Əliabad kəndlərində uşaqlar və orta yaş qrupuna aid insanlar arasında rast gəlindiyi bildirilir. Kürdəmirdə də qızılcaya yoluxanların sayında artım var. Oradakı Ailə Sağlamlıq Mərkəzinə 60-a yaxın sakin xəstəliyə yoluxma şübhəsi ilə müraciət edib, onlardan 9-u stasionara yerləşdirilib. Yoluxma halları rayonun Pirili, Ərəb Qubalı, Şilyan, Qarasaqqal və Sor kəndlərində qeydə alınıb. Noyabrın 23-də bildirilib ki, bir həftəyə yaxın qızılcaya yoluxan və qızdırması düşməyən, Qağacılı kənd sakini 4 yaşlı Rüfət Qəribli xəstəxanaya gətirilərkən dünyasını dəyişib. Qeyd edək ki, bu 2 rayondan öncə oktyabrın sonunda Şəki Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın şagirdlərində də qızılca aşkarlanmışdı.

**Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin bölmə müdiri Gülafət Azadəliyeva 2 ay öncə mediaya açıqlamasında qeydə alınan qızılca hallarını miqrasiya və peyvənd olunmamaqla əlaqələndirdi:**

– Sentyabr ayında qızılcaya yoluxan 24 nəfərin 84 faizi peyvənd olunmayanlardır. Yoluxma halları, əsasən, qızılca əleyhinə peyvənd olunmayan uşaqlar arasında qeydə alınıb. İndi xəstəlik ocaqlarında əks-epidemik tədbirlər aparılır, qızılca peyvəndindən kənarda qalan uşaqlar QPM (qızılca–parotit–məxmərək əleyhinə) vaksini ilə buna cəlb olunurlar.

Statistikaya görə, hər il uşaqların 95–96 faizi qızılcaya qarşı peyvənd edilir. Hesablama Palatasının audit çərçivəsində tibb işçiləri arasında keçirdiyi sorğuda vətəndaşların peyvənd vurulmasından imtina səbəbləri araşdırılıb. Sorğularda vətəndaşların imtina səbəbləri kimi peyvəndlərin mənşə ölkəsi, həmçinin yerli reaksiyalar və qısamüddətli qızdırma halları, bundan əlavə, uşaqlarda autizmə səbəb olmasına dair elmi əsassız qənaətlərin göstərildiyi üzə çıxıb. Ölkədə vurulan peyvəndlərin, orta hesabla, 44,6 faizi profilaktik peyvənd təqvimindən kənarlaşmaqla, özəl klinikalarda gerçəkləşdirilib.

Yekunda qeyd edək ki, valideynlər ərazi poliklinikaları və Ailə sağlamlıq mərkəzləri ilə sıx əlaqədə olmalı, peyvənd təqviminə ciddi əməl etməlidirlər ki, sonradan uşaqlarda daha ciddi ağırlaşmalar baş verməsin.

***Z.HÜSEYNOVA***
***XQ***

# Böyük Turançı – Əhməd bəy Ağaoğlu



**Əhməd bəy Ağaoğlu Azərbaycanın və bütöv türk dünyasının fenomenal şəxsiyyətlərindən biridir. O, həyatı, fəaliyyəti, çoxşaxəli və zəngin yaradıcılığı ilə xalqımızın ədəbi-mədəni, ictimai-siyasi, elmi-fəlsəfi fikir tarixində nadir simalarındandır.**

Turançılığın böyük ideoloqlarından olan Əhməd bəy Ağaoğlunun həyat və yaradıcılığına diqqət və maraq heç vaxt azalmayıb. Bakı Slavyan Universitetinin professoru Şahbaz Şamıoğlu fədakar millət fədaisinin zəngin irsinin ən sanballı tədqiqatçılarındandır. Onunla söhbətimiz bu böyük tarixi şəxsiyyət barədədir.

**– Əhməd bəyin adını çəkmək, onun haqqında düşünmək belə xoşdur, deyilmi? Əvvəlcə "Böyük Turançı"nın xalqımızın, eləcə də bütün türk dünyasının mədəni inkişafı və intibahındakı yeri və rolu barədə qısa məlumat verməyinizi xahiş edirəm.**

– Böyük məmnuniyyətlə. Əhməd bəy Ağaoğlu Azərbaycan ədəbi-mədəni, elmi-fəlsəfi, ictimai-siyasi fikir tarixinin təkrarsız nümayəndələrindəndir. O, XIX əsrdə Avropa təhsili görmüş çox az sayda ziyalılardan, geniş elmi biliyə və zəngin dünyagörüşünə malik yazıçı-mütəfəkkirlərdəndir.

Şərq və Qərb mədəniyyətinə dərindən bələd olan Ə.Ağaoğlu zəngin yaradıcılığı və çoxşaxəli fəaliyyətilə yalnız Vətəni Azərbaycana və ikinci Vətəni Türkiyəyə deyil, bütöv türk-islam aləminə layiqli xidmətlər göstərmiş, böyük bir coğrafiyada yaşayan türklərin müasirləşməsi, sivil dünya xalqları səviyyəsinə qalxması üçün əlindən gələni etmiş, eyni zamanda, türkün şanlı tarixinin öyrənilməsi və təbliği istiqamətində yorulmadan çalışmışdır.

Ə.Ağaoğlu canından çox sevdiyi Vətəninin əsarətdən qurtularaq istiqlala qovuşması üçün bir fədai və yazıçı-mütəfəkkir kimi inadlı mübarizə aparmış, xalqın erməni daşnaklarına qarşı təşkilatlanması və Bakının bolşevik-erməni birləşmələrindən azad edilməsində yaxından iştirak etmişdir. Onun Azərbaycanın siyasi mühacirəti tarixində müstəsna yeri vardır.

**– Səhv etmirəmsə, Əhməd bəyin parlaq publisistik yaradıcılığında Şuşa, Vətən həsrəti mövzusu qırmızı xətlə keçir...**

– Elədir. Təəssüf ki, tale bu böyük şəxsiyyətə qarşı bəzən çox qəddar olmuşdur. Sonuncu dəfə 1918-ci ildə Azərbaycanda olan Ə.Ağaoğlu dekabrın 8-də İstanbula -- ailəsinin yanına gedərkən ağlına da gətirməzdi ki, qarşıda onu məşəqqətlərlə dolu həbs və sürgün, ömrünün yerdə qalan illərini Azərbaycanı, doğma Qarabağı, doğulduğu Şuşanı ancaq xəyallarda, xatirələrdə, ailə üzvləri və dostları ilə söhbətlərində, yazışmalarında yaşada biləcək kövrək bir həyat, üzücü bir həsrət gözləyir.

Ə.Ağaoğlu "türk dünyasının bir planeti" idi, həyatın mürəkkəbliyindən, qədərin yazısından sovet dönəmində Azərbaycandan baxanda bu planetin bəzən "qaranlıq" tərəfi axtarılır, Türkiyədən boylananda işıqlı, nurlu, tükənməz enerji ilə dolu yönü görünürdü.

Xoşbəxtlikdən, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Ə.Ağaoğlu irsinə münasibət tamam dəyişdi. Bu gün hər kəs başa düşür ki, Əhməd bəy kimi şəxsiyyətlər bu xalqın sərvəti, dəyəridir.

**– Ə.Ağaoğlu böyük mütəfəkkir M.F.Axundov irsinin davamçısı sayılır. Sizin bu barədə düşüncələriniz oxucularımız üçün maraqlı olardı...**

– Ə.Ağaoğlu cəmiyyətin müasirləşməsi, ədəbiyyat və sənətin zaman kontekstində vəzifələri məsələsində, heç şübhəsiz, Mirzə Fətəli Axundzadənin davamçısı idi. Ə.Ağaoğlu da M.F.Axundzadə kimi, C.Milton, C.Lokk, Volter, Ş.Monteskyö, J.J.Russo, C.S.Mill və başqa Qərbi Avropa mütəfəkkirlərindən bəhrələnmişdi, azad cəmiyyət, ideya və söz azadlığı, fikir plüralizmi kimi dəyərlərin bərqərar olunmasına çalışırdı.

Ə.Ağaoğlunun bədii-fəlsəfi əsərlərinin leytmotivini xalq və millət, milli kimlik və milli yaddaş problemləri təşkil edirdi və onu düşündürən məsələlər bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Yeri gəlmişkən, müstəqil Azərbaycanın öz torpaqlarını azğın erməni işğalçılarından azad etməsində vaxtilə Ə.Ağaoğlunun öz əsərlərində böyük önəm verdiyi tarixi milli kimliyə bağlılıq amili xüsusi rol oynadı. Böyük mənada Ə.Ağaoğlu ideyaları bu günümüzlə və sabahımızla həmahəng səsləşir.

**– Şahbaz müəllim, sizin Ə.Ağaoğlu ilə bağlı bir çox elmi məqalə və monoqrafiyalarınızı diqqətlə oxumuşam. Böyük publisistin memuarları barədə fikirləriniz məndə xüsusilə böyük maraq doğurdu...**

– Ə.Ağaoğlunun bir şəxsiyyət kimi gerçək obrazının qavranılmasında onun müxtəlif illərdə qələmə aldığı memuarların müstəsna əhəmiyyəti var. Memuarlar həm də yazıçı-mütəfəkkirin bioqrafiyasının hazırlanmasında etibarlı mənbələr kimi diqqəti cəlb edir. Yazılış tarixinə görə, xronoloji ardıcıllığı pozsaq da, qeyd edək ki, "Altmış yeddi il sonra" əsərində Şuşanın, ümumən Qarabağın mədəniyyəti və etnoqrafiyası, elat həyatı, ədibin uşaqlıq və yeniyetməlik illəri, adamların məşğuliyyəti və psixologiyası; "Malta xatirələri"ndə dövrün ictimai-siyasi tarixi, müəllifin xarakterinin bütün yönləri, əqidəsindən dönməzliyi, haqq-ədalət uğrunda mübarizəsi; "Sərbəst firqə xatirələri"ndə siyasi baxışları və düşüncələri, Atatürk və dövrün tanınmış simaları ilə münasibətləri geniş planda, əlvan lövhələrlə təqdim olunmuşdur.

Ə.Ağaoğlunun bədii-sənədli irsini – memuarlarını bu ardıcıllıqla düzmək olar ki, onun ömür yolunu bəzən xırda detallarına qədər izləyə biləsən. Memuarlar Ə.Ağaoğlunun bədənnüma güzgüsüdür, onu necə varsa, eləcə də göstərməyə tamamilə qadirdir, bu "güzgü"dən Ə.Ağaoğlunun bəzəksiz-düzəksiz bütöv həyatı boylanır.

**– Ə.Ağaoğlu milli jurnalistika tariximizdə epistolyar janrın ən parlaq nümayəndələrindən sayılır. Onun zəngin irsindən daha nələri əxz etməyimizi vacib hesab edirsiniz?**

– Ə.Ağaoğlunun epistolyar irsini çəkinmədən onun yaradıcılığının ən mühüm tərkib hissəsi hesab etmək olar. Maltadan ailə üzvlərinə, sürgündən azad edildən az sonra Nəriman Nərimanova və Əli bəy Hüseynzadəyə göndərdiyi məktublar Ə.Ağaoğlunun xarakterini, zövqünü, cəmiyyətə baxışlarını, siyasi dünyagörüşünü dəyərləndirmək baxımından etibarlı mənbələrdir.

Bəzən özüm-özümə sual verirəm ki, bu sahədə tədqiqatları davam etdirməyə ehtiyac varmı? Dərhal cavab verirəm: Əlbəttə, var! Ə.Ağaoğlunun həyatı, mühiti, müasirləri ilə əlaqələri və zəngin, çoxşaxəli bədii və elmi yaradıcılığının dərindən öyrənilməsi günümüzün ən aktual məsələlərindəndir.

Çünki Ə.Ağaoğlu ədəbi-mədəni, ictimai-siyasi, elmi-fəlsəfi fikir tariximizə yazıçı, mətbuat xadimi, tarixçi, siyasətçi, dinşünas, pedaqoq kimi daxil olduğundan onun irsinə kompleks yanaşma tələb olunur.

Ümid edirəm ki, Ə.Ağaoğlunun zəngin elmi, bədii və publisistik irsi bundan sonra da geniş tətqiq edilərək öyrəniləcək. Böyük Turançı öz ölməz fikir və düşüncələri ilə daim müasirimiz olaraq qalacaq.

**– Professor, maraqlı və dolğun cavablarınıza görə təşəkkür edirəm.**

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Sumqayıtda solmaz "dəmirağac"...

## *Adına "Zəfər ağacı" deyilir*



**Nəvələri Sumqayıt Şəhidlər xiyabanına ziyarətə aparmışdım. Balaca Əli şüşə qoruyucunun içərisində boyu 3 metrə qədər olan memorial ağacı göstərib soruşdu:**

**– Baba, ağacı niyə bura qoyublar? Budaqlarından niyə dəmir yarpaqlar asılıb?**

**Cavab verdim ki, bu, solmaz "Zəfər ağacı"dır. Budaqlarından sallananlar isə metal hərbi lövhəciklərdir. Hərəsi bir şəhidin adını yaşadır. Bu, solmayan ağacdır.**

Bəli, ölkəmizdə bir ilk olan, budaqlarından hərəsi bir şəhidin adına olan 3 min yarpaq-lövhəcik asılmış "Zəfər ağacı" bu müqəddəs məkana gələn hər kəsin diqqətini çəkir. Burada Tovuz döyüşlərinin şəhid generalı, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovdan tutmuş, Şuşa uğrunda döyüşlərdə həlak olan sonuncu şəhidimiz – XTQ baş giziri, Vətən Müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevə qədər ölməz Vətən oğullarının hamısının öz "yarpağı" var. Qarabağ uğrunda müqəddəs savaşda həlak olmuş qəhrəmanlarımızın adının əbədiləşdirildiyi "Zəfər ağacı" abidəsi "Sumqayıt Texnologiyalar Parkı" (STP) Şirkətlər Qrupu tərəfindən ərsəyə gətirilib. Xiyabana ziyarətə gələnlər, toy edən cütlüklər bu qəhrəmanlıq rəmzinin fonunda ehtiramla şəkil çəkdirirlər.

İnişil "Zəfər ağacı" Bakı Bulvarı ərazisində keçirilən "Qarabağ qəhrəmanlarının izi ilə" adlı yarmarkada nümayiş etdirilib və böyük marağa səbəb olub. Həmin yarmarkadan əldə olunaraq "Yaşat" Fonduna ianə edilən vəsaitdə bu ağacın da payı var. "Zəfər ağacı" sonra Sumqayıta gətirilərək, buradakı Şəhidlər xiyabanında özünə əbədi ünvan tapıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun, Milli Qəhrəman Polad Həşimovun anası Səmayə Həşimovanın, Milli Qəhrəman Qorxmaz Eyvazovun oğlu Asəm Eyvazovun, həmçinin Vətən Müharibəsi Qəhrəmanları Anar Şükürov, Ramiz Cəfərov, Sübhan Cəbrayılov, Camal İsmayılov və Mehrab Niftəliyevin ailə üzvlərinin şəhidlərimizin əziz xatirəsinə ucaldılmış "Qalib Azərbaycan əsgəri" abidəsi ilə bərabər "Zəfər ağacı"nın da açılışında necə kövrək və qürurlu anlar yaşadıqları yadımdadır.

"Zəfər ağacı"nın bir özəlliyi də budur ki, başqa abidələr kimi postament üzərində qurulmayıb, birbaşa müqəddəs Vətən torpağından boy göstərir. Abidə paslanmaya davamlı metaldan hazırlanıb.

Solmaz ağacın ətrafı daim qələbəlik olur. Hər kəs onun qarşısında dayanıb yarpaq lövhəciklərdə yazılmış şəhid adlarını oxuyur, ölməz qəhrəmanlara uca Tanrıdan rəhmət diləyir və nadir abidəni yaradanlara alqış deyir.

***Ə.ƏLİYEV***
***XQ***

# Lənkəranda plov festivalı

**Qədim zamanlardan Lənkəranda çəltikçilik inkişaf edib. Bölgə bu diyarın yerli istehsalı olan ətirli düyülərdən bişirilən çeşidli plovları ilə tanınıb. "Ən böyük qazan" adlı layihə çərçivəsində şəhərin Heydər Əliyev parkında keçirilən plov festivalı ənənənin davam etdiyini göstərib.**



Festival "Azərsun Holding" MMC-nin təşkilatçılığı və Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunub. Şəhər rəsmiləri, ictimaiyyət nümayəndələri və qonaqlar təqdim edilən şou proqramı maraqla izləyiblər. Festival çərçivəsində Almaniya, Fransa, İngiltərə, İsveçrə kimi ölkələrdə Azərbaycanın kulinariya irsini tanıdan məşhur kulinar Əliheydər Məmmədovun hazırladığı müxtəlif növ plovlar nümayiş olunub. Bu gözəl təamları dadanlar aşpazın məharətinə heyran qalıblar.

Bundan başqa, festivalda müxtəlif əyləncələr – uca boyluların, od püskürənlərin şouları təqdim edilib. Tamaşaçılara xatirə hədiyyələri də paylanıb. Azərbaycan Dövlət Rəqs Ansamblı üzvlərinin çıxışları alqışlanıb. Populyar müğənnilər öz ifaları ilə tədbirə rəng qatıblar.

***XQ***

## Kitab rəfi

### "İzahlı ictimai-siyasi terminlər lüğəti"




***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Dilçilik İnstitutunun Elmi Şurasının və Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının qərarı ilə nəşr olunub.***

Lüğətin tərtibçiləri Terminologiya şöbəsinin müdiri professor Sayalı Sadıqova, filologiya üzrə fəlsəfə doktorları Svetlana Novruzova, Sima Quliyeva, Natəvan Hüseynova, Vəfa Abdullayeva-Nəbiyevadır.

Lüğətdə Azərbaycan dilində işlənən 2800 ictimai-siyasi termin toplanıb və onların izahı verilib. İctimai-siyasi leksika cəmiyyətin bütün sferalarını özündə əks etdirdiyinə görə kütləvi informasiya vasitələrində geniş istifadə olunur. Bu nəzərə alınaraq, lüğətdə ayrı-ayrı elm sahələrində işlənən terminlər toplanıb. İctimai-siyasi leksikaya cəmiyyətin müxtəlif hadisələri ilə bilavasitə əlaqədar olan siyasi-iqtisadi əlaqələr, milli azadlıq və ictimai-siyasi hadisələr, ölkənin təhlükəsizliyi, milli və beynəlxalq təhlükəsizlik, partiyaların adlarını ifadə edən termin və sözlər daxildir.

### "Azərbaycan kinosunun dili"

***AMEA Nəsimi adına Dilçilik İnstitutunun tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Füzuli Mustafayevin yeni kitabı belə adlanır.***




Məlumdur ki, kinonun cəmiyyət həyatındakı rolu artdıqca, müxtəlif filmlərdə Azərbaycan ədəbi dilinin işləkliyi gücləndikcə bu sahədə təhlillərə zərurət duyulur. Azərbaycan dilinin həm yazılı, həm də şifahi formasının özünü göstərdiyi kino dilində fikrin, mənanın yaradılmasında sözlə yanaşı, başqa semiotik və qeyri-verbal vasitələr də iştirak edir. Tamaşaçının dünyagörüşünü artırmaq məqsədi daşıyan hər hansı telefilmin aparıcısı və ya kinoaktyor şifahi ədəbi dilə, onun səslənmə qaydalarına, nitq mədəniyyətinin tələblərinə və ədəbi normalara riayət etməlidir. Buna kömək məqsədilə kitabda kino dilində vurğu, intonasiya, orfoepik normalar, şəkilçilərin, saitlərin və samitlərin tələffüzü, danışıq üslubu, kino dili və şifahi ədəbi dil, kino dili və nitq mədəniyyəti məsələləri araşdırılıb.

Kitabın baş redaktoru professor Nadir Məmmədli, elmi redaktoru professor İsmayıl Məmmədli, rəyçiləri filologiya elmləri doktorları Nəriman Seyidəliyev və Aslan Bayramovdur.

### Rafiq Ələkbər yaradıcılığının təhlili

***Şair-tənqidçi Hikmət Məlikzadənin "Rafiq Ələkbər yaradıcılığında ədəbi zərurət" kitabı filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun elmi redaktorluğu ilə işıq üzü görüb.***




Nəşrdə şairin poetik yaradıcılığı, sənət özəllikləri araşdırılıb. Konkret misallar əsasında göstərilib ki, Rafiq Ələkbər şeirləri əsasən fəlsəfi-ideoloji mükalimələri əhatə edir. Müəllif hədəfə aldığı mövzuları bədii sanballa, dərin məna və məzmunda ifadə edə bilir. Şeirlərdə insani bir səmimiyyət, olaylara müdrik yanaşma özünü göstərir.

**Əcəl haqlasa da həreni bir cür,**
**O biri dünyaya köçlər eynidir.**

Beləcə, şair Rafiq Ələkbər həyatı idrak məsamələrində axtarır, taleyə şans prizmasından nəzər salır və oxucularına Tanrı fürsətindən yetərincə bəhrələnmək barədə çağırış edir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Xatından Xocalıya

## Öncə həmkarlarımın suallarına cavab



Mən "Minsk şəhərinə gedirəm" – deyəndə həmkarımız İlqar Həsənovdan belə bir sual eşitmişdim: "Hansı səfərə getsən, iki sözündən biri "Turan sevdalıları", "Turana gedən yol" , "Turanın sabahı" ifadələri olur. Bəs Minskdə nədən yazacaqsan?" Demişdim ki, ona, orada baxarıq. Gəldim, baxdım, gördüm və Turan ideyasını dəstəkləyənlərə baş əyərək, onları alqışladım. Allah onları bəd nəzərdən qorusun!

Bu şükranlığıma səbəb olan fakt ondan ibarətdir ki, imperialist qüvvələrin, "Parçala, hökm sür!" siyasətini yürüdənlərin iki qardaş slavyan xalqının yaratdığı, bəşər tarixində xüsusi yeri olan – Rusiya ilə Ukrayna dövlətləri arasına saldığı nifrət, rəxnə elə qanlı fəsadlar törədir ki, üçüncü qardaş – Belarus da müharibədə olmasa belə, Moskva və Kiyevdən az əzab çəkmir. Bunu hava limanındaca tanış olduğum Maksim adlı taksi sürücüsündən tutmuş, hamının əhval-ruhiyyəsində gördüm. Burada Rusiyanı və ya Ukraynanı birmənalı şəkildə müdafiə və ya ittiham edən kimisə görə bilməzsən. Necə müdafiə və ya ittiham etsinlər ki, "dalaşanların" hər ikisi öz qardaşlarıdır. Allah iraq eləsin! Ona görə də, İlqar Həsənov, türkdilli ölkələrin Turan Birliyi haqqındakı arzularını dəstəklə.

Digər həmkarım Zərifə Bəşirqızı isə mənim bu səfərim haqqında eşidəndə "daha güclü arqumentlə" çıxış eləmişdi: "Sən neçə illərdir Minsk qrupunu "ağ yuyub qara sərirsən", onların ünvanına "oxumadığın bayatı" ( mən daim yazmışam, bu bayatı oxumaq fikri haradan yarandı?) qalmayıb. İndi nə üzlə ora gedirsən?"

O suala indi cavab verirəm. Vladimir Sankeviç adlı bir həmsöhbətim dedi ki, ötən əsrin doxsanıncı illərində Minsk şəhərinin adına yazılan iki lüzumsuz sənəd var idi ki, onların heç birinin Belarus xalqına, dövlətimizə və Minsk şəhərinə qətiyyən dəxli yox idi. Birincisi 1991-ci il dekabrın 8-də SSRİ-nin ləğv edilməsi barədə RSFSR rəhbəri Boris Yeltsin , Ukrayna rəhbəri Leonid Kravçuk və Belorusiya rəhbəri Stanislav Şuşkeviç tərəfindən Belovejskdə imzalanmış razılaşma idi. Həmin sənəd imzalanandan dərhal sonra Boris Yeltsinin, iki həftə sonra isə Mixail Qorbaçovun Ağ evə, ata Buşa zəng edərək muştuluq istəməsi sifarişin haradan gəldiyini sübut edirdi. O razılaşma saxta idi. Çünki milyonlarla insanın referendumla həll etməli olduğu məsələni üç nəfərin yoluna qoyması absurd idi. Üstəlik, həmin sənədin əsli o vaxt da üzə çıxmamışdı, sonrakı 32 ildə də tapılmadı. Yəni, ortada yoxdur.

Bundan başqa, Ermənistanın Azərbaycana ərazi iddiaları işğal fazasına keçəndə, yəni 1992-ci il martın 24-də o vaxtkı ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilmiş görüşündə indi artıq mövcud olmayan Dağlıq Qarabağdakı vəziyyət müzakirə olunmuş, münaqişənin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdir. Ancaq işğalı davam etdirmək istəyən Ermənistanın bu tədbirə qatılmayacağını bildirməsindən sonra belə bir konfrans keçirilməmişdir. Yəni Minsk qrupu deyilən həmin qondarma və səmərəsiz təşkilatın bizim şəhərə qətiyyən dəxli yox idi.

Bu sətirlər o deməkdir ki, mən həmkarım Zərifə Bəşirqızına Vladimir Sankeviçin arqumentləri ilə cavab vermiş oldum.

### Azərbaycanla oxşar taleyi yaşayan ölkə

... Belarus dörd tərəfdən quru sərhədləri ilə əhatə olunmuş (Azərbaycanla əsas fərqi budur), gözəl təbiətə malik Şərqi Avropa ölkəsidir. Oteldə əlimə keçən "Belarus haqqında məlumat" kitabçasının hansı səhifəsini açırsan orada dünya müharibələrinin əks-sədası ilə razılaşırsan. Bir ölkədə bu mövzuda nə qədər muzey, nə qədər abidə olarmış? Bu ölkənin xalqı da, dövləti də son iki əsrdə daim müharibələrin mərkəzində olub. Yeri gəlmişkən, Belarus da Rusiya və Ukrayna kimi BMT-nin yarandığı gündən bu beynəlxalq təşkilatın üzvüdür. Yəni İkinci Dünya müharibəsi illərində daha çox maddi və mənəvi itkilərə məruz qalmış bu üç sovet respublikası hələ BMT-nin yarandığı gündən həm SSRİ çərçivəsində, həm də ayrılıqda oraya üzv qəbul edilmişdilər.

Bir paytaxtda nə qədər dini inanc yerləri olarmış? Elə müvəqqəti yaşadığım "Viktoriya na Zamkavoy" oteli də Qaliblər prospekti ilə Qəsr küçəsinin ( belaruslar "Замкавая вуліца" deyirlər) kəsişməsində yerləşir. Yerli sakinlərin Qəsr küçəsindəki köhnə tikililər haqqında söhbətlərini eşidəndə bizim İçərişəhərlə fəxr etməyimiz yadıma düşdü. Bu barədə, sağlıq olsun, sonrakı yazılarda söhbət açacağıq.

### Minsk, doğrudan da, gözəl şəhər, əsrarəngiz paytaxtdır

Bu şəhər slavyan dövlətçiliyinin, mədəniyyətinin, xüsusən, slavyan memarlığının dəyərli daşıyıcılarından biridir. Yeri gəlmişkən, mən Moskvadakı Qırmızı meydanı görəndə hələ xeyli gənc idim, 20 yaşım var idi. O yaşda insanın fantaziyası güclü olur. Buna baxmayaraq, Qırmızı meydanın özünü və ətrafını görəndə mat qalmışdım ki, bütün bunları necə düşünmək, planlaşdırmaq, kağıza köçürmək və reallaşdırmaq olar? Bu yaşda isə Minskdə – Qələbə meydanını görəndə həmin sualları özümə təkrar-təkrar verdim.

Xatırladım ki, mənim bu şəhəri görmək istəyim beş il əvvəl –noyabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Minskdəki Qələbə meydanında 1941–1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət etməsi barədə hazırlanan telesüjetə baxarkən yaranmışdı. Mən o meydanı televiziya ekranından sevmişdim. Allaha şükür ki, gəldim və gördüm.

Bu dost ölkədən, gözəl məkandan hazırladığım ilk yazını su ilə, aydınlıqla yekunlaşdırmaq istəyirəm: Bu şəhəri gözəl edən məqamlardan biri də belarusların Viliya adlandırdığı, rus dilində isə Neris deyilən çayın suyudur. Bu çay Minskin içməli su mənbəyidir. Svisloç çayı isə birbaşa Minsk şəhərindən keçir. Dostluğumuzun ömrü də elə su ömrü qədər olsun.

### Yaxşı yadımdadır...

Belarus Prezidenti Aleksandr Lukaşenko 44 günlük İkinci Qarabağ müharibəsindən təxminən altı ay sonra – 2021-ci ilin aprelində Bakıda Serj Sarkisyan haqqında danışarkən demişdi ki, daha çox şey bilirəm, açsam, Serji bitirərəm. Bu ifadə İrəvanda zəlzələ effekti yaratmışdı.

Bundan başqa, cənab Lukaşenko Bakıda Azərbaycan Prezidentinə "sən" deyə müraciət etmiş və dünyanın ən arif diplomatlarından olan Azərbaycan Prezidentindən bunun qarşılığı olaraq, "sən" müraciətini eşitmişdi. Həmin fakt isə Belarus liderinin dünya ermənilərinə mesajı idi. Yəni demək istəyirdi ki, nə ölkələrimiz arasında həll olunmayan bir məsələ var, nə də şəxsi zəmində! Ölkələrimiz də dostdur, liderləri də!

### Yeri gəlmişkən...

Noyabrın 23-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Belarus paytaxtında keçirilən sammitində də Ermənistan tamamilə "oyundankənar vəziyyətdə" qaldı. Futbolda isə oyunçusu belə vəziyyətə düşən komanda cərimə zərbəsi ilə cəzalandırılır.

*İttifaq MİRZƏBƏYLİ,*
*XQ*
*Belarus Respublikası,*
*Minsk şəhəri*

# Qazaxıstanlı alim AMEA-da

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Qazaxıstan Elm və Təhsil Nazirliyinin Çokan Vəlixanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, Akademiyanın müxbir üzvü Ziyabek Kabuldinov ilə görüşüb.**



Görüşdə iki ölkə arasında elm sahəsində əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli AMEA-da aparılan elmi-tədqiqat istiqamətləri barədə danışıb. A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu ilə Qazaxıstanın Tarix və Etnologiya İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsinin əhəmiyyətinə toxunan akademik ortaq dəyərlərə malik olan xalqlarımızın tarixi-elmi istiqamətlərinin birgə araşdırılmasının böyük əhəmiyyət kəsb etdiyini deyib.

Ziyabek Kabuldinov elmi-tədqiqat müəssisələri arasında imzalanmış əməkdaşlıq haqqında müqavilənin əhəmiyyətindən, iki ölkənin tarixçi alimlərinin birgə fəaliyyətinin perspektivindən söhbət açıb, elmi münasibətləri yüksək dəyərləndirib.

*XQ*

# ABŞ-ın müdafiə naziri Ukraynada



**ABŞ müdafiə naziri Lloyd Austin Ukrayna liderlərini Birləşmiş Ştatların bu ölkəyə Rusiyanın təcavüzünə qarşı mübarizəsində dəstəyini davam etdirəcəyinə əmin edib. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb.**

Qeyd edək ki, L.Austinin gözlənilməz səfəri Birləşmiş Ştatların əsas diqqətinin Yaxın Şərqdə münaqişəyə yönəldiyi üçün rəsmi Vaşinqtonun Ukraynaya dəstəyinin zəifləyə biləcəyi ilə bağlı narahatlıqlar fonunda baş verib.

Ukrayna Prezidenti Volodimir Zelenski L.Austinə ölkəsinə səfərinin bu çətin zamanda ukraynalılar üçün mühüm siqnal olduğunu deyib: "Biz Amerika xalqına çox minnətdarıq. Onlar bütün bu çətinliklərdə bizimlədir".

Xatırladaq ki, L.Austin 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qanunsuz müdaxiləsi ilə başlayan təxminən iki illik müharibə dövründə Prezident V.Zelenskinin liderliyini yüksək qiymətləndirib: "Siz lap əvvəldən Ukrayna xalqını insanların çoxunun ağlına gəlməyən işlər görməyə sövq etmisiniz. Beləliklə, biz Ukrayna xalqının bütün dünyanı heyran qoyan cəsarəti, fərasəti, şücaətinin şahidi olduq. Cənab Prezident, bu gün sizə çatdırdığım mesaj ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatları sizinlədir. Biz uzun müddət sizinlə olacağıq".

Görüşdən sonra L.Austin Ukraynaya daha çox sursat və əlavə HIMARS artilleriya raket sisteminin daxil olduğu yeni yardım paketinin ayrıldığını elan edib. O, Baxmut yaxınlığında ön cəbhədə döyüşmüş Ukrayna hərbçiləri ilə də görüşüb.

Hərbi ekspertlər qeyd edirlər ki, son günlər regionda havaların temperaturu həqiqətən də aşağı düşməyə başlayıb. Qərb və Ukrayna rəsmiləri narahatdırlar ki, Rusiya mühüm infrastrukturu hədəf almağa və ilin ən soyuq günlərində təchizatı kəsməyə cəhd edərək, bu qış mövsümü də keçən qışda olduğu kimi eyni taktikadan istifadə etməyə çalışa bilər.

Yeri gəlmişkən, həftə sonu dron hücumları yüzlərlə şəhərdə elektrik enerjisinin kəsilməsinə səbəb olub. Dronlardan bəzisi Kiyevi də hədəf alıb, lakin Ukrayna rəsmiləri paytaxtı hədəf alan bütün dronların vurulduğunu bildiriblər.

*M.HACIXANLI*
*XQ*


# "Azərişıq" ASC

## "0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların" satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. 0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat -"Azərişıq" ASC
H/h-AZ83AIIB33020029441802068118
VÖEN-9900069391
Benefisiarın Bankı "Kapital Bank"ın Gənclik filialı
Kod-200189
VÖEN-9900003611
M/h-AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

Əlaqələndirici şəxs - Emil Əliyev (telefon-440-39-93 daxili 29-18). emil.aliyev@ azerishiq.az

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış.
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7.İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
8. İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.
10. İddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar.
11. İddiaçının potensial imkanları haqqında texniki-iqtisadi məlumatlar.
12. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
13. İddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmamaları haqqında arayış.
14. İddiaçının son 3 ildə oxşar işlə bağlı yerinə yetirilmiş ən azı 5 (beş) milyon manatlıq müqavilə haqqında məlumat.
15. İddiaçının son 3 il ərzində idxal olunmuş elektron ölçü cihazlarının müqaviləsi və yaxud müvafiq təsdiq edici gömrük sənədləri haqqında məlumat.
16. İddiaçının istehsalçı və yaxud rəsmi nümayəndəliklə partnyorluq müqaviləsi haqqında məlumat.

Qeyd– tələb olunan sənədlər tam təqdim edilmədiyi halda, iddiaçının ixtisas göstəriciləri meyarlarına uyğun gəlmədiyi hesab edilərək müsabiqədən kənarlaşdırılacaqdır.

Tender təklifi-( zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı; (təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır.)

Sənədlər Azərbaycan dilində 2( iki) nüsxədə (1 əsli və 1 surəti tərtib olunmalıdır (xarici dildəki məlumatlar Azərbaycan dilinə tərcümə edilməlidir).

Arayışların verilmə tarixi cari ay və il üçün qoyulması məcburidir.

Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq edilməlidir. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir.

(https // etender.gov.az/)

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank təminatı istisna olmaqla 14 dekabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22 dekabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 dekabr 2023-cü il saat 15.00-da Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*


# Yaxın Şərq: Girovlar geri qaytarılır

**Bu gün artıq üçüncü gündür ki, Qətərin vasitəçiliyi ilə İsrail-Həmas arasında əldə edilən müvəqqəti atəşkəs çərçivəsində girov və məhbus mübadiləsi davam edir. Bu barədə BBC məlumat yayıb.**



Xəbərdə deyilir ki, cümə günü HƏMAS Qəzzada 24 girovu "Qızıl Xaç" Komitəsinin nümayəndələrinə təhvil verib. Girovlardan 13-ü israilli, 10-u tailandlı və 1-i filippinlidir. Sazişə əsasən, cümə günü İsrail həbsxanalarında saxlanılan 39 fələstinli Qərb sahilində sərbəst buraxılıb.

Xatırladaq ki, bu il oktyabrın 7-də HƏMAS yaraqlıları İsrailə hücum edərək yüzlərlə adamı öldürüb, 200-dən çox sakini girov götürüb. Bundan sonra İsrail Müdafiə Qüvvələri Qəzzaya hücum ediblər. Qəzzanın səhiyyə nazirliyinin nümayəndəsi bildirib ki, İsrailin hücumu nəticəsində 14 mindən çox fələstinli öldürülüb, otuz minə yaxın insan yaralanıb. Qəzzada yüzlərlə bina dağıdılıb.

Məlum olduğu kimi, İsrail ilə HƏMAS arasında 4 günlük müvəqqəti atəşkəs barədə razılaşmaya əsasən HƏMAS 50 girovu, İsrail isə həbsxanada saxladığı 150 fələstinlini azad etməlidir. Müvəqqəti atəşkəs cümə günündən başlayıb.

Atəşkəs anlaşmasına görə, tibbi ləvazimat, yanacaq və ərzaq daşıyan yük maşınları artıq Misirdəki "Refah" keçid məntəqəsi vasitəsilə Qəzzaya daxil olub. Bundan başqa, Qahirə hər gün Qəzzaya 130 min litr dizelin çatdırılacağını öhdəsinə götürüb.

Dünən Böyük Britaniyanın xarici işlər naziri David Cameron regiona səfər edib. Nazir Fələstin liderləri ilə görüşərək bildirib ki, Britaniya Qəzzaya humanitar dəstək almaq üçün yeni imkanlarını araşdırır.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 258 (30374) 26 noyabr 2023-cü il, bazar

İdman xəbərləri

# Həmyerlilərimiz UEFA-nı təmsil edəcək

**AFFA-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri, qurumun İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva UEFA-da yeni təyinat alıb.**



Belə ki, o, qadın futbolçulardan ibarət İsveçrə və İsveç yığmalarının Millətlər Liqasındakı dekabrın 1-də Lütsern şəhərində keçiriləcək oyununda UEFA nümayəndəsi olacaq.

AFFA-nın digər təmsilçisi, Uşaq və Gənclər üzrə Yarışların Təşkili Şöbəsinin baş mütəxəssisi Zümrüd Ağayeva isə bu turnirin dekabrın 5-də Stara-Pazova şəhərində təşkil ediləcək Serbiya – Ukrayna matçında UEFA nümayəndəsi vəzifəsini icra edəcək.

# Xəyal Caniyev dünya çempionu oldu

**Azərbaycanın Qarışıq Döyüş Sənəti idmançısı Xəyal Caniyev muay-tay üzrə dünya çempionatında uğurla çıxış edib.**



Rusiyanın Çelyabinsk şəhərində keçirilən turnirdə ən nüfuzlu versiya üzrə döyüşdə təmsilçimiz super yarımorta çəkidə Asiya çempionu olan iranlı Moctaba Taravatiyə qalib gəlib.

Xatırladaq ki, Xəyal Caniyev bundan əvvəl qarışıq döyüşdə ardıcıl 3 dəfə qalib adını qazanıb.

# Tatarıstanla idman təhsili əməkdaşlığı

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyevin rəhbərliyi ilə nümayəndə heyəti Tatarıstanın Kazan şəhərində səfərdədir.**



Səfər çərçivəsində Povoljye Dövlət Bədən Tərbiyəsi, İdman və Turizm Universiteti ilə memorandum imzalanıb. Bununla da, tərəflər arasında ümumi maraqları əhatə edən tədris, elm və beynəlxalq əlaqələr sahələri üzrə əməkdaşlıq məsələləri rəsmiləşdirilib. Fuad Hacıyev Tatarıstan Respublikası Baş nazirinin müavini Leyla Fazleyeva ilə də görüşüb. Görüşdə kadrların birgə hazırlanması məsələləri müzakirə olunub.

Tərəflər təhsil, bədən tərbiyəsi və idman sahəsində birgə elmi tədqiqatların mümkün variantları ilə bağlı fikir mübadiləsi aparıblar.

*Leyla SABİRQIZI*
*XQ*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

Texnologiya

# Azərbaycan Ukraynaya minatəmizləmə maşını verib



**Bu barədə Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev "X" hesabında məlumat verib. Səfir yazıb ki, ölkəmiz bu ilin iyununda Londonda keçirilən Ukraynanın Bərpası Konfransında vəd etdiyi humanitar minatəmizləmə maşınını bu ölkəyə bağışlayıb.**

S.Mustafayev həmçinin qeyd edib ki, "İmprotex Industries" istehsalçı şirkətinin mütəxəssisləri minatəmizləmə maşının istismarı ilə bağlı ukraynalı mütəxəssislərlə təlimlərə başlayıblar.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

Maraq dünyamız

# 1 dəqiqədə 2 zəlzələ olur

**1962-ci ildə Kolumbiya Universitetinin alimi Con Oliver "Yerin nəbzi" adlı fenomeni ilk dəfə sənədləşdirib. Bu, planetin kalibrlənmiş metronomun dəqiqliyi ilə yaratdığı sirli seysmik impulsdur: hər 26 saniyədən bir baş verir.**

Tədqiqatçı müəyyən edib ki, bu ritmik titrəyişlərin mənbəyi Cənubi Atlantikada haradasa lokallaşdırılıb. "Planet Today" xəbər verir ki, yeraltı təkanların intensivliyi yay aylarında artır.

İki onillikdən sonra, 1980-ci ildə amerikalı geoloq Gary Holcomb yenidən fenomenə diqqət çəkib. O, tufanlar zamanı seysmikliyin artdığını qeyd edib. Və yenə də təxminən 20 il ərzində onlar sirli hadisəni unudublar. Sonra "Yerin nəbzi" yenidən müəyyən edilib və Kolorado Universitetinin tələbəsi Qreq Bensen tərəfindən araşdırılmasına qərar verilib. Ona Bensenin rəhbəri Maykl Ritsvoller kömək edib. Tandem "Discover Magazine" jurnalında apardıqları araşdırmaların ilk nəticələrindən danışıb.

Onlar müasir alətlər dəstindən istifadə edərək, pulsasiyanın daha dəqiq lokalizasiyasını müəyyən edə biliblər. Mənbə Afrikanın qərb sahillərində, Biafra bölgəsində aşkar edilib. Amma onlar da müəmmalı hadisənin səbəblərini anlaya bilməyiblər.

Bəs elmi ictimaiyyətin hansı versiyaları var?



Bir nəzəriyyə, nəbzin dalğaları qitə şelfinə dəyməsi və okean dibini deformasiya etməsi nəticəsində yarandığını göstərir. Digər bir fərziyyə isə seysmik aktivliyə görə vulkanları nişan verir.

*XQ*

Hadisə

# İranda qar uçqunu

**Bir qrup alpinist İranın Lorestan əyalətinin Zaqros dağlarında Oştoran Kux dağının ətəyində qar uçqunu altında qalıb. Onlardan bəziləri həlak olub. Bu barədə "Mehr" agentliyi məlumat yayıb.**



Qeyd olunur ki, faciə cümə axşamı baş verib. Lorestan Tibb Elmləri Universitetinin yerli tibb rəsmisinin sözlərinə görə, 9 alpinist itkin düşüb, onlardan beşinin cəsədi sonradan tapılıb.

Üç nəfəri xilas etmək mümkün olub. Onlar xəstəxanaya yerləşdiriliblər.

*XQ*

Kosmos

# Ayda ayaq izləri itmir

**Ayda nə külək, nə də su var, ona görə də "Apollon" astronavtlarından qalan ayaq izləri itməyəcək. Bu o deməkdir ki, Ayda qalan cihazlar, eləcə də astronavtların ayaq izləri min illərlə, hətta bəzi alimlərin fikrincə, milyonlarla il qalacaq. Yuxarıda qeyd etdiyimiz kimi ayaq izlərinin yağış və küləklə deformasiyaya uğraması mümkün deyil.**

Ay seysmik olaraq ölü cisimdir. Beləliklə, vulkanların da bu izləri silməsi variantı yoxdur. Yalnız Aya düşən kiçik meteoritlərlə deformasiya ola bilər, amma bunun üçün çox vaxt lazımdır.

Hətta bəzi astronomlar belə fikir bildirirlər ki, Günəş 4 milyard ildən sonra qırmızı nəhəngə çevriləcək. Bundan sonra Ayda "Apollon" missiyalarının izləri qalacaq.

Yeri gəlmişkən, hər sutka Yerə təxminən 200 min meteorit düşür. Yerə hər gün 27 tona yaxın, il ərzində isə 10 min tondan artıq kosmik toz düşür. Son 500 il ərzində Yerin çəkisi kosmik maddələrin hesabına bir milyard ton artıb.



*P.ƏFƏNDİ*
*XQ*

Hava

# Abşeronda gün yağmursuz, bölgələrdə yağıntılı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Arabir güclənən cənub-qərb küləyi əsəcək. Gecə 10-14°, gündüz 16-21° isti olacaq. Atmosfer təzyiqi 752 mm civə sütunundan 749 mm civə sütununa enəcək, nisbi rütubət 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 18-23°, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

Festival

# Meysəridə şərab festivalı

**Dünən Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun Meysəri kəndində İkinci Üzüm və Şərab Festivalı keçirilib.**

Tədbirdə ölkəmizin müxtəlif bölgələrindən olan üzüm emalı və şərab istehsalı zavodları tərəfindən müxtəlif çeşidli şərablar nümayiş etdirilib, şərab dequstasiyaları, yarmarkalar, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə somelye (şərab servisi) kursları təşkil olunub.

Festivalda uzun illərdən sonra ilk dəfə olaraq Qarabağın Tuğ kəndində yetişdirilən Azərbaycanın qədim yerli texniki üzüm sortu hesab olunan "Xındoqnı"dan alınan qırmızı süfrə şərablarının təqdimatı olub.



*FİDAN*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 3060
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00